Hüseyn Kürdoğlu
Fəridə Alışanlı

Səmə könül bağladım

HÜSEYN KÜRDOĞLU
FƏRİDƏ ALIŞANLI

SƏNƏ KÖNÜL BAĞLADIM

Bakı – «Sabah» – 2009

Redaktoru:

İlham Alışanlı

Hüseyn Kürdoğlu, Fəridə Alışanlı.
Sənə könül bağladım. Bakı, «Sabah», 2009, 108 səh.

ISBN 5-86106-039-8

4702060000
029 - 2009

© «Sabah» nəşriyyatı, 2009

SEVGİ DASTANI

Altı ildən bəri ürəyimdə gəzdirdiyim arzu nəhayət ki gerçəyə döndü. Şükür sənə, İlahi! Ömürgün yoldaşım, şair Hüseyn Kürdoğlunun mənə həsr etdiyi şeirləri bir yerə toplayıb çap etdirə bildim. Topladım demək bəlkə də düz olmaz. Əlli ildən bəri göz bəbəyi kimi qoruduğum, hər saralmış səhifəsində əziz bir xatirəmiz, məhrəm bir duyğumuz, sevgi-səadət dolu günlərimiz qorunan dəftərlərdən sadəcə vərəqlər üzərinə köçürdüm «Hüseyn və Fəridə» dastanının şeirə dönən anlarını. Bəli, dastan dedim. Bu, yaşlı, xəstə, gözü nisgilli, ürəyi qübarlı bir qadının mübaliğəsi deyil. Dünyada acı və ya şirin sonluqla bitən çox məhəbbət hekayəsi var. Onların hər biri öz ömrünü yaşayır. Şeirə, nəğməyə, dastana, nağıla dönənlərsə zaman-zaman yaddaşdan yaddaşa, nəsildən-nəsilə ötürülür. Bizim dastanımız 1956-cı ildə Universitetdə keçirilən bir poeziya axşamında doğulub. Filologiya fakültəsinin Jurnalistika şöbəsinin I kursuna qəbul olunan qubalı bir qızın tələbə dəftərinə yazdığı ilk qələm təcrübələrini qorxa-qorxa, ürəyi əsə-əsə, qoşmaları Universitet tələbələrinin dilindən düşməyən, IV kursda oxumasına baxmayaraq artıq ədəbi dairələrdə bir şair kimi yaxşı tanınan, mərkəzi mətbuatda və almanaxlarda şeirləri dərc olunan Hüseyn Kürdoğluya rəy demək üçün təqdim etdiyi gündən başlayıb 47 illik bu dastan. Bir gündən sonra həmin dəftərə rəy

əvəzinə «Gözlərin» şeirini yazıb mənə qaytardı Hüseyn. Beləcə başladı sevgi, arzu, ümid, həsrət dolu günlərimizin nəğmələri. Hüseynin hər gün ürək qapımı döyən odlu-alovlu, gileyli-güzarlı misraları, mənim şeir adına düzüb-qoşduğum cavablar... Üç ildən sonra Hüseynin doğulub boya-başa çatdığı, hər gülündən-çiçəyindən, daşından-qayasından ilham aldığı Laçından mənim ata yurdum Qubaya toy karvanı gəldi. Yeni bir hekayəmiz, ömür-gün sevdamız başladı. Bir gün zarafatla «daha mənə əvvəlki kimi sevgi şeirləri yazmazsan» dedim. Yaman xətrinə dəydi bu sözüm: «Sən mənim şeir ilahəmsən, məhəbbət adına nə yazıramsa hər birində sənə olan duyğularım əks olunur. Amma indiki belə deyirsən, nə qədər sağam sənə şeirdən çələng hörəcəyəm». Bu çələngi hördü mənə Hüseyn. Onun hər yarpağında xoşbəxt və qayğısız günlərimizin sirli-sehrli duyğuları, şirin xatirələri, taleyimizə yazılan ağrı-acıların cavabsız sualları, uzun illər neçə-neçə xəstəliklə çarpışmalı olan küskün, kövrək, arzulu, ümidli şair qəlbinin həzin pıçıltıları var.

Hər sevgidən nəsə qalır bu dünyada. Bizim sevgimizdən doğulan nəğmələr kimi... Kim bilir bəlkə də dünya hər sevgidən qalan işığın, arzunun, ümidin gücünə fırlanır, öz məhvərindən çıxmır.

Hüseynin öz sağlığında çap olunan kitablarında əsərlərinin az bir qismi toplanıb. Ürəyinin qanı ilə yazdığı şeirlərin işıq üzü görməməsi çox incidirdi onu. Onun yarımçıq qalan arzularını bu gün qardaşı Şirindil, oğlu İlham həyata keçirirlər. «Yurduma qurbandır sözüm», «Aytənin nəğmələri», onun

haqqında məqalə, xatirə və şeirlərin toplandığı «Bir şeir bulağıydım» kitabları poeziya həvəskarlarına, şeir qədri bilən oxuculara bir daha tanıdır bu bənzərsiz söz ustadını. Ömrünün son illərində Hüseynin bir arzusu da var idi. «Mənim sənə, sənin mənə həsr etdiyin şeirləri toplayıb bir kitab tərtib edəcəyəm. Üstündə hər ikimizin adı yazılacaq. Bu bizim hər bir sınaqdan üzüağ çıxan sevgimizə ucalan söz abidəsi olacaq» - deyirdi. Hüseynin bu arzusunu yerinə yetirməyi könül verdiyim, əhd-peyman bağladığım ömür-gün yoldaşımın, mərd və dəyanətli bir insanın, özü qədər şeirlərinə də vurğun olduğum gözəl bir şairin ruhu qarşısında mənəvi borc sandım. Bağışla məni, Hüseyn. Bir istəyini yerinə yetirmədim. Xətrimə dəyməmək üçün təriflədiyin «şeirlərimi» bu kitaba salmadım, sənin nəğmələrinin yanında onlara yer görmədim. Bir də buna nə ehtiyac? Sənin hər misranda, hər sözündə ikimizin də qəlbi döyünmürmü? Övladlarına, nəvələrinə nə qədər şeirlər həsr etmisən. Hər nəvənin ad gününə söz sovqatın olardı. «Aytənin nəğmələri»ndə onlar hamısı toplanıb. Üzünü görmədiyin nəticən Aydanın – nəvələrimizin ilki olan Daşqının balasının nazına-qəmzəsinə şeir qoşmaq borcunusa indi mən yerinə yetirməli oluram. Sənin kimi yaza bilməsəm də sənin dilindən yazıram. Buna görə də məni bağışla.

Çox götür-qoy edəndən sonra sənsiz günlərimin ağrı-acısından doğan «şeirlərimin» bir neçəsini kitaba daxil etdim. Qoy oxucular onların hər birini «şeir» kimi yox, yetim qalan bir ürəyin na-

ləsi, fəryadı, sözə dönən həsrəti kimi qəbul etsinlər.

Bu kitabla ya indi, ya da yüz il sonra tanış olacaq oxucu. Bizdən əvvəl də seviblər, bizdən sonra da sevəcəklər. Bu isə bizim sevgimizdir. Həm bənzərli, həm bənzərsiz ömrümüzdür. Bu şeirlərdəki duyğular sənin də ürəyini titrədirsə əbədi və ölməz sevgiyə inanmağa dəyər.

Fəridə Alışanlı

HÜSEYN
KÜRDOĞLU

SƏNİNKİYƏM MƏN

GÖZLƏRİN

Gəl and içək bir müqəddəs ilqara,
Nur çiləsin bu peymana gözlərin.
Doğru sözün bəndəsiyəm əzəldən.
Çəksin məni imtahana gözlərin.

Səni gördüm yenə yaram qan verir,
Bir baxışın min ürəyə can verir.
Ağ günlərim seyrəldikcə san verir,
Heç yetmədi bir amana gözlərin.

Oğrun-oğrun xumarlanıb süzəndə.
Qıya baxıb, xəstəsini üzəndə,
Fikrə dalıb, sirdaşını gəzəndə,
Ziynət olur yüz dastana gözlərin.

Ömür boyu həsrətinlə yanaram,
Bir quş olub yollarına qonaram,
Sən olmasan bu dünyanı danaram,
Əvəz olar bir cahana gözlərin.

1956, noyabr

TAPILMAZ

Könül deyir bu dünyada sənintək.
Qədir bilən mehribanım tapılmaz.
Xumar gözün od salmasa bağrıma,
Söz mülkündə bir nişanım tapılmaz.

Baxışının ismətində gözüm var.
Duruşuna dünyalarca sözüm var.
Doğru sözün yollarında izim var,
Axtarsalar heç yalanım tapılmaz.

Deyirlər ki, yar könlünü yar alar,
Sızıldaşır qəlbimdəki yaralar.

İstəmirəm özgələri yaralar,
Sənin kimi bir loğmanım tapılmaz.

Qonaq gedək, mən gəldiyim o dağa,
Qurban olum. sənin kimi qonağa,
Qovma məni gözlərindən uzağa,
Yaxşı günüm, xoş məkanım tapılmaz.

1956, noyabr

QOŞMA

Təsəlli versə də, tanıyan, bilən,
Hər kəsi yandırar öz ayrılığı,
Qəmli baxışları yol çəkər müdam,
Gözünü kor qoyar göz ayrılığı.

Üzün kəm olmasın həyadan, ardan,
Boynunu vursalar, düşmə vüqardan.
Əlin üzülməsə vəfalı yardan,
Qoy olsun dünyanın yüz ayrılığı.

Bu həsrət mənim də qaşımı çatır,
Ömür şərbətimə ağılar qatır.
Bir ilan olsa da qəlbimdə yatır,
Bəs necə deyirsən, əz ayrılığı.

Eşqimin gülşəni sovruldu bada,
Bircə gün yetmədim əhdə, murada.
Qismətim olmasın barı dünyada
İlham ayrılığı, söz ayrılığı.

1956, noyabr

TƏCNİS

Ünüm ərşə çıxdı, bəlkə bu könlüm,
Hicran yuxusundan oyana, dedim.
Yazıqsan dedilər, giley yaz ona,
Aşiqəm, qıymaram o yana dedim.

Əllərim açmamış yaxa bəndini,
Göz yaşım az qalır yıxa bəndini,
Şirin təcnisimin cığa bəndini
Qəmzəsi bağrımı oyana dedim.

Kim deyir, həsrətdən ah çəkən doyar,
Ah çəkdirən də yar, ah çəkən də yar.
Eşidim səsini ah çəkəndə yar,
Küləklər əsməsin o yana dedim.

Kəkliyn xəyalı daşa vuruldu,
Ayağının alı daşa vuruldu.
Hüseynin iqbalı daşa vuruldu,
Ürəyim göynədi, oy ana!.. dedim.

1956, noyabr

KÖNLÜM

Yardan ayrı düşüb, küsmə dünyadan,
Vəfasız əlindən gileyli könlüm.
Sənmisən ömrümün bahar bülbülü,
A nəğməli könlüm, a neyli könlüm.

Nahaqdan özünü yaxırsan oda.
Qədrini bilməyən yetişməz dada.
Düşmə köhlənindən, qalma piyada,
Yeldən iti gedən bədöylü könlüm.

1956, noyabr

QOŞMA

Vüsala söz qoşub, çalım sazımda,
Hicranın nəğməsi teli yandırar.
Eşqin atəşi var mənim sözümdə,
Dodağı yandırar, dili yandırar.

Hər quş yuva qursun öz oylağında,
Ovçular gizlənsin göl qırağında,
Sonanı vursalar bala çağında,
Ananın göz yaşı gölü yandırar.

Gözlərim görməsin ayrılıq dağı,
Sönməsin eşqimin yanan çırağı.
Qəmli məzarımın soyuq torpağı
Külüngü yandırar, beli yandırar.

Çeşmələr buz tutar qar nəfəsindən,
Bənövşə qoxunar yar nəfəsindən.
Qönçələr saralsa xar nəfəsindən,
Bülbülün naləsi gülü yandırar.

1956, noyabr

QOŞMA

Ağ gülə bənzəyən şux yanaqların
Busəsi acıdır, adı şirindir.
Könlüm ayna tutur qara bir qıza,
Deyirlər qaranın dadı şirindir.

Canımdan əl çəkdim, o canı gördüm.
Elə bil yenidən cahanı gördüm.
O qızı böyüdən obanı gördüm,
Qohumu şirindir, yadı şirindir.

Demirəm ariflər qandırsın məni,
Məcnun xəyallılar andırsın məni.
Qoy xumar gözləri yandırsın məni,
Tüstüsü şirindir, odu şirindir.

1956. noyabr

QƏLBİMİ SINDIRIB

Qəlbimi sındırıb, qanıma batıb,
Yenə lalə kimi qızıl dondadır.
Heç baxmır üzümə zalımın qızı,
Elə cəllad kimi qəsdi qandadır.

Onsuz döyünməmiş sinəmdə ürək,
Dərdinə düşmüşəm, eyləmir kömək.
Torpağın altına köçən günədək.
Xəyalım ondadır, fikrim ondadır.

Məhəbbət yolunda boran olmasın.
Ömrümün sarayı viran olmasın.
Könlümün quşunu vuran olmasın,
Uçub yar bağına qonha-qondadır.

7 dekabr, 1956

AZARIN MƏNƏ GƏLSİN

Dinlə, gəldiyin yolun torpağından öpəni,
Öz könül dünyasına qəm toxumu səpəni.
Dolmuş səma gözlərin – xəyalımın vətəni.
Çəpər çəkmə yoluna, xəyal vətənə gəlsin,
Xumar gözlüm, ağlama, azarın mənə gəlsin.

Qoy sənin can dərmanın mən verdiyim can olsun.
Bir dəfə qurban istə, min dəfə qurban olsun.

Ürək qanı desələr, göz yaşım al qan olsun,
İç qanımı, saxlama, lütf elə yenə gəlsin,
Xumar gözlüm, ağlama, azarın mənə gəlsin.

Yaralanmış maraltək niyə boynun burulur,
Səni qəmli görəndə qol-qanadım qırılır,
Gözəllik bəndəsiyəm, bağrıma daş vurulur.
Yad gülünü qoxlama, Kürdoğlu dinə gəlsin,
Xumar gözlüm, ağlama, azarın mənə gəlsin.

1957

QOŞMA

Könül yar eşqində səməndər oldu,
Alışıb yanmağı bir adət eylər.
Alovlar içində nəğmələr qoşar,
Sevdalı bülbülü xəcalət eylər.

Kainat bir çəmən, dünya bir çiçək,
Ey zənbur ilhamım, sən də şirə çək,
Allahı, Tanrını tanımaz ürək,
Canan dərgahında ibadət eylər.

Niyə küsdü məndən o can sirdaşı,
Yüz yerdən yarıldı bağrımın başı,
Ahımdan quruyub gözümün yaşı,
Deyirlər, ağlasan mərhəmət eylər.

İnsafa gəlməyir o qəlbiqara,
Atır taleyimi qaranlıqlara,
Bir zaman yol salar bizim dağlara,
Tənha məzarımı ziyarət eylər.

1957

QOŞMA

Məhəbbətin məclisində dil açar,
Can evində saza dönmüş ürəyim.
Mən ölüncə bütövlənib cəm olmaz,
Yar yolunda toza dönmüş ürəyim.

Ah çəkərəm, ruzigarı yandırar,
Meh əsdikcə dağda qarı yandırar.
Suya düşsə, dəryaları yandırar,
Dərdə düşüb, közə dönmüş ürəyim.

Göz yaşımdan yar oylağı nəm olar.
Həyat eşqi gözlərimdə qəm olar.
Kam almamış qurda-quşa yem olar,
Torpaq altda buza dönmüş ürəyim.

Bir qulaq as qəlbimdəki fəryada,
Atma məni, əhd-ilqarı sal yada.
Məndən sonra qalacaqmı dünyada?..
Dəftərimdə sözə dönmüş ürəyim!

1957

BAXMAZ

Xumar gözlərini görəndən bəri,
Gözüm ahuların gözünə baxmaz.
Gülər yanağına həsrətlə baxan,
Lalənin, nərgizin üzünə baxmaz.
Eşqin nə tilsimi, nə sehri varmış,
Sözün doğrusuna, düzünə baxmaz.
Qara qaş altında yanan çıraqlar
Üzümdə hicranın izinə baxmaz.
Yanğına susamış sevdalı könül,
Eşqin alovuna-közünə baxmaz.
Mənmi günahkaram, hüsnünmü sənin,
Ürəyim ağlımın sözünə baxmaz.

1957

QARA GÖZLƏR

Çəkdim həsrətini illər boyunca,
Ağartdı saçımı qara gözlərin.
Soyuq təbəssümlə yandı kənardan,
Gözümdən tökülən qora gözlərin.

Yenə könlüm-gözüm eşqinlə yaşar,
İndi görsən məni xəyalın çaşar.
Çeşmək tax, gözəlim, qorx ki, qamaşar
Baxsa başımdakı qara gözlərin.

O qara dəryada qərq oldu mənim
Həsrətlə yüklənmiş ömür yelkənim.
Hicran sükançıdır – eşqimə qənim,
Bilmirəm aparır hara gözlərin?!

1957

QOŞA UCALAQ

Zamanın gərdişi keçir gözümdən,
Həyat bir qovğalı səhnə görünür.
Sürətlə fırlanır çərxi dünyanın,
Dünənki təzələr köhnə görünür.

Çarpır şəlalə tək ürəyimdə qan,
Hayqırır həyatdan ləngimə bir an!
Davatım, qələmim lal duran zaman,
Bir suyu sovulmuş dəhnə görünür.

Qoyma ki, ilhamım bir anlıq susa,
Mənzillər uzaqdır, ömürlər qısa.
Masamın üstündə şerim olmasa,
Elə bil çörəksiz təknə görünür.

Hər ötən saatdan, gündən bac alaq,
Təbiblər qoymasın, vaxtsız qocalaq.
Gəl qoşa yaradaq, qoşa ucalaq,
Sevgilim, dünyada tək nə görünür?!

NİYƏ MƏNDƏN QAÇIRSAN?

Qıyma-qıyma doğrasan da bağrımı,
Uf! – demərəm bilməyəsən ağrımı,
Gözümə bax, gör dediyim doğrumu?
Başımıza nə qiyamət açırsan?
Qurban olum, niyə məndən qaçırsan?

İnanma ki, sevən könül daşına,
Mürvət elə gözlərimin yaşına.
Ömür boyu qoy dolanım başına,
Sonamısan, ovçu görüb uçursan?
Qurban olum, niyə məndən qaçırsan7

Od tutaram yar sitəmli baxanda,
Çiçək kimi gözü nəmli baxanda,
Yazıq-yazıq, qəmli-qəmli baxanda
Mən bilirəm nə mənalar saçırsan,
Qurban olum, niyə məndən qaçırsan?

1957

HANI MƏKTUBUN?

Ayrılıq dumanı kəsmiş aranı,
Könül mehribanım, hanı məktubun?
Qərq elər dünyanı bağrımın qanı,
Qoynu gülüstanım, hanı məktubun?

İstəyin söndümü, üzün döndümü,
Ürəyin şəndimi, yerin gendimi,

Uçurdun bəndimi, kəsdin fəndimi,
Sevgili düşmanım, hanı məktubun?

Qəmli misralarım dövlətim-varım,
Ölməz etibarım, ölməz ilqarım,
Əzəl işvəkarım, əzəl şikarım,
Yaralı ceyranım, hanı məktubun?

Tökülür göz yaşım, çatılır qaşım,
Qüssədir sirdaşım, ağarır başım,
Mən necə dalaşım, necə savaşım,
Sənədir gümanım, hanı məktubun?

Qulağı səsdəyəm, tikan üstəyəm,
Taleyi yasdayam, qərib xəstəyəm,
Axır nəfəsdəyəm, son həvəsdəyəm,
Rəhmsiz loğmanım, hanı məktubun?

Dərdim bir asiman, göz yaşım ümman,
Niyyətim gülüstan, qismətim xəzan,
Tikdiyim xaniman oldumu viran,
Başına dolanım, hanı məktubun?

17 avqust, 1957

TEZ QAYIT

Sənsiz yasa dönür toyum, düyünüm,
Sən allah tez qayıt, aman günüdür.
Rəqib tərifindən könlün açılsa,
Əcəl gözlərimi yuman günüdür.

Zəhər şərbət olar şirin sözündən,
Nazlı-qəmzəlisən özün-özündən,
Pərişan telindən, xumar gözündən,
Tabsız ürəyimin uman günüdür.

Ömrü gödək olsun bu hicranımın,
Dözməyə taqəti varmı canımın?
Gözümdə yaş olan ciyər qanımın,
Qəlbimin evinə daman günüdür.

Əziz bayramıdır elin, obanın,
Tək mənəm dustağı cövrü-cəfanın,
Yolları dağılsın sizin Qubanın,
Yazıq Kürdoğlunun yaman günüdür.

18/III/1958

***

Gözlədim-gözlədim, gözüm saraldı,
Hasilə gəlmədi dovğası yarın,
Qazanın altında yanan od kimi,
Yandırdı qəlbimi qovğası yarın.

29/III/1958
Yataqxana

SƏNİ

Qubanın ürkək maralı,
Kəməndə salaram səni.
Sıxaram odlu sinəmə,
Duz kimi yalaram səni.

Ağlaram gecə-gündüzü,
Ayırmasın həyat bizi.
Ucuz tutsan əhdimizi
Odlara qalaram səni.

Ayaq tozunda yalanam,
Qalxıb boynuna dolanam.

Əfsun görmüş bir ilanam,
Qorxma ki, çalaram səni.

Baxçanızdan gül dərmişəm,
Başıma çələng hörmüşəm.
Yalvarıb könül vermişəm,
Yalvarıb alaram səni.

24/VI/1958

VƏFALIYAM MƏN

Günəşdən utanıb yerə göz dikən,
Körpə bənövşətək həyalıyam mən.
Eşqimə düşənə yazığım gələr,
Özüm də yazığam, bəlalıyam mən.

Daşlar da tərpənər xoş duruşumdan,
Könüllər yıxdığım çıxar huşumdan,
Yüz yara sağalar hər baxışımdan,
Qadir loğman kimi şəfalıyam mən.

Eşqin nəğməsidir gövhərim, zərim,
Yarımın ismidir sözüm, əzbərim.
Sirli bir dünyadır xumar gözlərim,
Hüsnümü duyana səfalıyam mən.

Qoşa gəzməyimiz düşübdür səsə,
Qorxuram tay-tuşum eşidib küsə,
Qoşulub qaçaram, anam verməsə,
Sevda yavrusuyam, cəfalıyam mən.

Doğrudur ellərin bu xoş misalı:
«Hardan evlənmisən oldun oralı».
Könlümü verdiyim Laçın qartalı
Bir gün deyəcəkmi Qubalıyam mən.

1958

***

Ömrümüz puç olur qəflət içində
Soyuq ahlar ilə biz yana-yana.
Oğrun baxışırıq həsrət içində
Boğulan yaşlarla göz yana-yana.

Varmı xoş günümüz ömürdən sayaq,
Günahmı sarılsaq sarmaşıq sayaq?
Nə busədən doyaq, nə candan doyaq
Dodaq yana-yana, üz yana-yana.

Həyat qılıncını bizə də çaldı,
Bu ki, nə hicrandı, nə də vüsaldı.
Sənə deyilməmiş qönçədə qaldı,
Qəlbimdə nə qədər söz yana-yana!

Gənclik piyaləsi boşalsa dolmaz,
Gözəllik solsa da xatirə solmaz.
Hicranın mənzili üç addım olmaz,
Məgər olmarıqmı köz, yana-yana.

Tərlanam, mən hara, bu qəfəs hara,
Qəlbimə vurursan sən də bir yara.
Bir gün görəcəksən uçdum dağlara,
Axtar onda məni, gəz yana-yana.

QONAQ GƏLƏCƏK

Bu gün varlandırıb kasıb komamı,
Balaca baldızım qonaq gələcək.
Yandırıb qəlbimdə sönmüş ilhamı,
Hilalım, ulduzum qonaq gələcək.

Salam gətirəcək doğma Qubadan,
Hələ görmədiyim eldən-obadan.
Könlüm təzələnsin ənbər havadan,
Bənövşəm, nərgizim qonaq gələcək.

Yanında bacısı sona cilvəli,
Həm qaşlı-qabaqlı, həm dəcəl, dəli.
Paltarım, libasım köhnə, gülməli,
Xəciləm, əzizim qonaq gələcək.

Bakı, 1958

QOŞMA

Aranın bürküsü sıxır qəlbimi,
Çeşməli dağların qar ayrısıyam,
Gözəllər qoynundan uzaqdır əlim,
Üzülmüş xəstəyəm, nar ayrısıyam.

Bu şeypur səslənir hər qulağımda,
Bayquşlar ulaşır könül bağımda,
Mənə qürbət olmuş öz torpağımda
Kaman ayrısıyam, tar ayrısıyam.

Əlimdən alınır hər azadlığım,
Təpiklər altında itir şadlığım.
Gözümdə yaş olur namuradlığım,
Gözü yolda qalan yar ayrısıyam.

10 iyul 1958
Astara (hərbi düşərgə)

QUBADA

Qurban olum gözlərinin yaşına,
Sən ağlama, qoy buludlar ağlasın.
Qudyalçayın o bulanıq suları,
Ürəyimin qanı kimi çağlasın.

Kirpiyindən qalan oxdu sinəmdə.
Yadigarın gör nə çoxdu sinəmdə.
Qoy ha gəlsin, yer ki yoxdur sinəmdə,
Qəm cəlladı məni necə dağlasın.

Baxışların xəyalımla görüşər,
Gözlərindən qətrə-qətrə şeh düşər,
Ah çəkərsən gül-çiçəklər titrəşər,
Eşqim səni hər bəladan saxlasın.

Gəlib sənə qurban olum Qubada,
Başa yetsin ömür yolum Qubada.
Bir yer göstər ölüb qalım Qubada,
Xoş bir ölüm yollarımı bağlasın.

1958

QOY DOLANIM BU DAĞLARIN BAŞINA

(nəğmə)

Qoy dolanım bu dağların başına,
Quzey mənim, bulaq mənim, çay mənim.
Doğru sözün, düz ilqarın şahidi,
Bulud mənim, ulduz mənim, ay mənim.

Gül fəslində eşqə düşdüm çağladım,
Yandı bağrım yayda könül bağladım.
Payız gəldi ayrı düşdüm çağladım,
Xəzan mənim, bahar mənim, yay mənim.

Peyman tutub doğru yola getməsəm,
Yar bağında bülbül olub ötməsəm,
Həsrətini çəkdiyimə yetməsəm
Kədər mənim, qüssə mənim, vay mənim.

Gülüşü var çiçəklərin üzündə,
Yerişi var maralların izində.
Sinəsində, dodağında, gözündə
Bəxşiş mənim, sovqat mənim, pay mənim.

Sevgilimin tellərini sayalar,
Əllərinə qızıl həna qoyalar.
Aşıq çala səsə düşə qayalar,
Sevgi mənim, vüsal mənim, toy mənim.

1958

BƏYƏNMİR MƏNİ

(nəğmə)

Bir leyli gözlünün oduna yandım,
Saralıb-soluram, bəyənmir məni.
Bircə yol qanrılıb yana baxanda
Min ilham alıram, bəyənmir məni.

Mənə əl eyləyib çağırır özü,
Çatılır qaşları, doluxur gözü.
Verdiyi vədəni, dediyi sözü
Yadına salıram, bəyənmir məni.

Fikirli oturur, fikirli durur,
Açılmış telini qatara vurur.
Baxır uzaqlara boynunu vurur,
Qeydinə qalıram, bəyənmir məni.

Dinib danışmayır o dilbər sona,
Çəkdiyim cəfalar yetərmi sona.
Ayrısı çor desə, can deyir ona,
Mən qurban oluram, bəyənmir məni.

noyabr, 1956

KÖNÜL BAĞLADIM

(nəğmə)

Maral gəzər dağ üstə,
Bülbül uçar bağ üstə.
Niyə məndən qaçırsan,
Dağ çəkirsən dağ üstə.

Getmə, getmə, maralım,
Nə ki, dərdin var, alım.
Gözünə düz baxmasam
Gözlərimdən saralım.

Sözün mənə qənd olar,
Rəqibə rişxənd olar.
Bülbül də gül bağında,
Bircə gülə bənd olar.

Qoşa xalın zil qara,
Kipriyində mil qara.
İnanmasan eşqimə
And içərəm ilqara.

Sənə könül bağladım.
Çaylar kimi çağladım,
Mən səni bir duyğutək,
Ürəyimdə saxladım.

Sevgilini qınama,
İnanırsan sınama.
Dolanaram başına
Gəlin olsan anama.

15 oktyabr, 1957

NƏ DOLUXMUSAN?

Nə dedi, neylədi qurumuş dilim,
Ey qəlbi kövrəyim, nə doluxmusan?
Yaxan düyməsinə dəyməmiş əlim,
Ərköyün mələyim, nə doluxmusan?

Oynaşır gözündə qəm buludları,
Kipriyin andırır titrək otları.
Xəyalın dolaşır kainatları,
Tutulmuş fələyim, nə doluxmusan?

Bəndərgah qurmuşam, bəndə düşmüşəm,
Hüsnün xəracında fəndə düşmüşəm.
Məcnunlar düşənə mən də düşmüşəm.
Gözəlim, göyçəyim, nə doluxmusan?

Bəs hanı insafın, hanı mürvətin,
Dönməz yolçusuna eşqin hörmətin.
Göz yaşın yandırar bağrımı bütün,
Soluxmuş çiçəyim, nə doluxmusan?

Gileyli baxışın nə savaş eylər,
Könlüm tab gətirməz, min tələş eylər.
Gözüm dəryaları qanlı yaş eylər,
Ey çarpan ürəyim, nə doluxmusan?

11 yanvar 1959
(xəstə ikən)

NEÇİN AĞLAYIRSAN?

Neçin ağlayırsan, günüm-gündüzüm,
Yoxsa ki. başımda bir iş var mənim,
Ömrümün köşkünü yıxıb uçurar,
Tutub boğazımdan bu azar mənim.

Belə hıçqırmazdın öz dərdin olsa,
Yanıb sızlamazdın, az dərdin olsa,
Gəlsin ürəyimə yüz dərdin olsa,
Əzəl qismətimdir ahu-zar mənim.

Gözündən mey içim, duzludur dadı,
Kükrəsin sinəmin alovu, odu,
Sənsiz bu gözlərim yaşsız olmadı,
Kəsəndə səbrimi intizar mənim.

1959 (xəstə ikən)

FƏRİŞ

Yatağıma od tökülür,
Yatağından ayrı, Fəriş!
Məzarımdır dünya mənim,
Qucağından ayrı, Fəriş!

Vəfası yox şirin canın,
İştahı çox ac dünyanın.
Xeyri nədir bu dərmanın,
Dodağından ayrı, Fəriş!

Dərd üstümdən uçularmı?
Bəxtim nuru saçılarmı?
Bir dəm könlüm açılarmı,
Şıltağından ayrı, Fəriş?

Sönür ömür çıraqlarım,
Bəyaz qalır varaqlarım.
Yer tutmayır ayaqlarım,
Ayağından ayrı, Fəriş!

Ey yanağı şehli gülüm,
Kürdoğlunu yıxmaz ölüm,
Qorxma, düşməz can bülbülüm,
Budağından ayrı, Fəriş!

1/X/1960 (Neftçilər xəstəxanası)

ÇİÇƏK VAXTI

Vurulmuşam çiçək vaxtına
Quba bağlarının,
Gözlərim qamaşır
çiçək işığından.
Qəlbim işıqlanır
Çiçək gülüşündən,
Ciyərimə çəkirəm
Səhərin çiçək ətirli nəfəsini.
Gül-gülü çağırır,
Çiçək- çiçəyi.
Eşidirəm güllərin, çiçəklərin səsini…
Arılar sarışıb şehli çiçəklərə,
Hər ağacda mini, milyonu.
Bağları bürüyüb
Arıların çiçək nəğməsi.
Həsəd çəkirəm arı xortumuna,
arı zümzüməsinə,
arı qanadına.
Heykələ dönmüşəm bir ağac altında,
qarşımda çiçək dəryası,
Saçlarıma ağ çiçək tökür arılar.
Çiçəklənmiş ağac sanır məni də,
Saçıma qonur bir ağ kəpənək.
Arxlar da çiçək axıdır.
Yer - çiçək, göy – çiçək, su – çiçək…
Vurulmuşam çiçək vaxtına
Quba bağlarının,
Nə yaxşı burdan düşdü
Bahar günlərimin yolu.
Ayrılıram Quba bağlarından,
Qəlbim çiçək xatirəsiylə dolu.

1962, aprel

SƏNSİZ

Kimsə yanmaz halıma burda Süsənsiz, sənsiz.
Bir mükəddər qəribəm sanki vətənsiz – sənsiz.
Tənhalıqdan sıxılır dörd divar içrə qəlbim,
Bir qəfəs bülbülüyəm bağü çəmənsiz – sənsiz.
Köksüyün xallarını axtarır hey mürği-könül,
O da pərvaz eyləməz göylərə dənsiz – sənsiz.
Tale qan eyləməsin bağrımı sənsizlik ilə,
Görməsin hicr odunu Süsü də mənsiz, sənsiz.
Tənhalıq damətini tutmaz əlim, ey dilbər,
Könlümün qarlı dağı olmadı çənsiz – sənsiz.
Demə ki, nazbalışın daşə dönüb, Kürdoğlu,
Bir yataq bulmadı yarın da tikənsiz – sənsiz.

16 iyun 1962

KÖNLÜM

Kimsəsiz daxmaya mükəddər gələr,
Göndərib dağlara maralı, könlüm.
Yetim quzu kimi həsrətlə mələr,
Oğlundan, qızından aralı könlüm.

Təsəlli tapardım hər işdən ayrı,
Fəqət qəhr olaram Fərişdən ayrı,
O nazlı-qəmzəli yerişdən ayrı,
Yanıb kösöv kimi qaralı könlüm.

Başımın üstündə ötməyir İlham,
Bala bülbül kimi hər səhər-axşam.
Dəstədən ayrılan bir qərib quşam,
Çırpınıb sızlayır, yaralı könlüm.

Sən ki, o dağların mehribanıydın,
Gözəllik eşqinə can qurbanıydın,
Yalçın qayaların şux tərlanıydın,
İndi haralısan, haralı, könlüm?

Bakı, 5/VII/1963

FƏRİDƏMƏ YADİGAR

(İlk kitabı «Səhər nəğmələri»nə yazılan avtoqraf)

Ey könül bağında ilkin çiçəyim,
Soldura bilərmi boran-qar səni?
Verdim sevgilimə yadigar səni!

***

Onundur ilhamım, eşqim, ürəyim.
Qoynunda saxlayar nazlı yar səni,
Verdim sevgilimə yadigar səni!

4//II/1964

HƏYAT YOLDAŞIMA

İstərəm adına bir dastan yazam,
Yayıla şöhrətin yüz elə bir-bir.
Gileyli dolanma, sarıl boynuma,
Bəxtəvər çağları təzələ bir-bir.

Gəl ki. nə inciyək, nə də bir küsək,
Dərdin ayağını bu evdən kəsək.
Ürəkdən can deyib, can eşitməsək,
Dönər günlərimiz xəzələ bir-bir.

Çarmıxa çəkilsin qəm əlimizlə,
Eşqimiz, andımız, əməlimizlə.
Həm kamalımızla, həm əlimizlə
Hər müşkül işimiz düzələ bir-bir.

Qəlbimin səsidir bütün sözlərim,
Sədaqət yolundan getməz izlərim.
Təkcə sənə baxar vurğun gözlərim,
Baxmaz hər gördüyü gözələ bir-bir.

Şeirdir ömrümün sərvəti-varı,
Halal zəhmətimin şirincə barı.
Özün sərrafım ol, özün seç barı,
Yaxşını, yamanı üz elə bir-bir.

Bəxtəvər böyütdü bu həyat bizi,
Düşməz alnımıza möhnətin izi,
Qoyma xəzan vura gəncliyimizi,
Artırıb illəri yüz elə bir-bir.

1965

SƏN KÖNLÜMÜN OTAĞINA ÇIRAQSAN

Gözüm-könlüm yadırğadı, yad oldu,
Sən gedəli viran olmuş otağa.
Mənim kimi yollarına göz dikib
Gözlərinə qubar qonmuş otağa.
Ağ əllərin su verməyir nə vaxtdan,
Necə baxım gülü solmuş otağa?
Küləklər də qəlbim kimi ney tutar,
Dərdə qalmış, qəmə qalmış otağa.
Yalnız sənin gülüşlərin can verir
Daş-divarı fikrə dalmış otağa.
Könül burdan qovmaq istər hicranı,

Ümid adlı açar almış otağa.
Vüsal günü bir qırmızı donda gəl,
Günəş gətir bu qaralmış otağa.
Sən könlümün otağına çıraqsan,
Təbəssümün işıq salmış otağa.

HƏR AXŞAM

Könülsüz-könülsüz açdım qapını,
Elə bil zindana girdim hər axşam.
Həsrət yuva qurmuş sənsiz otaqda,
Hicran qaranlığı gördüm hər axşam.
Sən açıb qapını gülümsəmədin,
Bir də təzələndi dərdim hər axşam.
Könlümdə bəslədim vüsal çiçəyi,
Görüş xəyaliylə dərdim hər axşam.
Şəklin yatağımın baş ucundadır,
Mən sənə salam da verdim hər axşam.

XALLARIN QARA KÜNCÜT

Oda saldın könlümü, bir ay səndən küsəli,
Sizin naz qapısından ayağımı kəsəli.
Barışıq süfrəsinə nimçə-nimçə düzülmüş,
Bu küncütlü qovurğa, noğul, nabat, fəsəli.
Tök Şirvan şərabından yarına özün içirt,
Yanaqların buğdayı, xalların qara küncüt.

Şirinsən bişirdiyin dadlı şəkərburadan,
Yaxın otur, gözəlim, su keçməsin aradan.
Eşqimizə and içib qədəhləri qaldıraq,
Mənə səbr verməmiş, səni gözəl yaradan.
Hər qədəhin sonunda busə lütf elə bir cüt,
Yanaqların buğdayı, xalların qara küncüt.

Süfrəyə səməni qoy, şamları qoşa yandır,
Bu axşam ürəyimin hər teli bir kamandır.
Üzümə vurma, gülüm, hər nədirsə günahım,
Məndən incik olduğun gözlərindən əyandır.
Bu Novruz axşamında gəl könlümü az incit,
Yanaqların buğdayı, xalların qara küncüt.

20/III/1969

«QAYA ÇİÇƏKLƏRİ» KİTABINA YAZILAN AVTOQRAF

Göyərçin yar, bildirçin yar, sona yar,
Qoyma baxtın şam-çırağı sönə, yar.
Qoşa gəzək eşqimizin bağında,
Ömür gəlib yetişincə sona, yar.

31/XII/1970

YAR BƏNÖVŞƏSİ

(Fəriş, 8 mart bayramın mübarək)

Gəldin yar əlində xəstə yanına,
Gətirdin ömrümə bahar, bənövşə!
Çöldə tufan qopur, çovğun ulayır-
Üşütdümü səni bu qar, bənövşə!

Az qala dəryada batmışdı gəmim,
Sən gəldin yox olar kədərim, qəmim,
Sən ki, bu dar gündə oldun həmdəmim,
Gəl bir də bağlayaq ilqar, bənövşə!

Ömür sirdaşımın əziz töhfəsi,
Sənindir könlümün əzəl nəğməsi.
Sənətin, ilhamın o saf şöləsi
İncə yarpağında yanar, bənövşə.

Yenə də hüsnünlə cuşa gələrəm,
Kəkliyəm uçaram, daşa gələrəm.
Dağlara Fərişlə qoşa gələrəm,
Gələrəm alnımda vüqar, bənövşə.

7/III/1972

AY FƏRİŞ

Otuz beş bahara qədəm qoyursan,
Təzə yetkinləşir yaşın, ay Fəriş!
Məni sağaldacaq taleyin əli,
Axmasın üzünə yaşın, ay Fəriş!

Getsin, qayıtmasın o qanlı günlər,
Boranlı, çovğunlu, tufanlı günlər.
Bizdən uzaq olsun hicranlı günlər,
Bu il nələr çəkdi başın, ay Fəriş!

Təzə çiçəklənir baxtımız hələ,
Dövran sürəcəyik biz indən belə,
Qolunu boynuma sal gülə-gülə,
Bir də çatılmasın qaşın, ay Fəriş!

16//III/1972

MÜBARƏKDİR BAYRAMIN

Mübarəkdir bayramın, üç balamın anası,
Qızılgül qönçəsi tək qəlbin safdır, təmizdir.
Baxtımızın ulduzu, eşqimizin aynası,
O xəyallı gözlərin bir sahilsiz dənizdir.

Evimizə çıraqsan, alnı açıq, üzü ağ,
İlqarın, etibarın vüqarımın tacıdır,
Boyadan, bər-bəzəkdən hüsnün uzaqdır, uzaq,
Şirin, şəkər sözlərin dərdimin əlacıdır.

Həyat qoymaz ayırsın ömrümüzün yolunu,
Qoşa qartallar kimi bala uçuraq gərək.
Əzəlki sevgimizlə boynuma sal qolunu,
Şeirimi yaxana düz şehli bənövşələrtək,
Mübarəkdir bayramın, mübarəkdir, mübarək!

8 mart 1973

AY QARA QIZ

(Fəridənin ad gününə)

Həm dərdimsən, həm dərmanım,
Həm gülümsən, həm tikanım,
Həm dağımsan, həm dumanım,
Ay qara qız, ay qara qız!

Sənsiz bağrım qana dönər,
Göz yaşım ümmana dönər,
Qamətim kamana dönər,
Ay qara qız, ay qara qız!

Naz eyləmə, canım-gözüm,
Sənindir şerim-sözüm.
Gözündədir odum-közüm,
Ay qara qız, ay qara qız!

Yetişmisən yarı yaşa,
Aydan-gündən arı yaşa!
Pozma bu ilqarı yaşa,
Ay qara qız, ay qara qız!

Kürdoğlunun mehribanı,
İzzəti, şöhrəti-şanı,
Ağ günümün çıraqbanı,
Ay qara qız, ay qara qz!

17 mart 1973

FƏRİŞİN AD GÜNÜNƏ

İstərəm qələmimdən yağsın parlaq incilər,
Bircə dən də düşməyən tellərinə düzəsən,
Otuz altı baharı yola salma mükəddər,
Gözlərimdə hər zaman ilk bahardan təzəsən.

17/III/1974

FƏRİDƏYƏ

(«Çiçək təbəssümü» kitabına avtoqraf)

Özün dindir bu könlümün tarını,
Dilə gəlsin, sarı simlər oynasın!
Oxu sevgilinin misralarını,
Dodağında təbəssümlər oynasın!

12/XI/ 1975

FƏRİDƏNİN 8 MART BAYRAMINA

Necə keçər mənsiz günün-gündüzün,
Qəvvasıyam gözlərintək dənizin.
Bu səkkizin bir gözü mən, biri sən,
Ömür sürüb yüz yaşına çatınca,
Ulduzumuz axıb göydə batınca
Bir gözünü itirməsin səkkizin.

8 mart 1977

HƏSƏD APARMA

İsti yuvamızın keşiyində dur,
Sən həsəd aparma dövlətə-vara,
Əyilməz məhəbbət, əyilməz qürur
O iblis gülüşlü parıltılara.

Neçindir bu giley, bilmirəm neçin,
Qızıl nə şeydir ki, könül küsdürə?!
Gərdən yaranmamış həmayil üçün,
Qulaq yaranmamış sırğa gəzdirə.

Rəngli daş deyilmiş brilyant məgər,
Yanar duyğulara dəyərmi bu daş?..
Ağıl kamil olsa, ürək səməndər,
İnsan vüqarını əyərmi bu daş?!

Soyuq parıltılar saf işıq deyil,
Heç kəsin qəlbini qızdıra bilməz.
Gövhərlə bəzənmək yaraşıq deyil,
Hüsnün sərrafını azdıra bilməz.

Bu rəngsiz, boyasız bakir camalın,
Qocalmaz ilhamım, səadətimdir.
Başına dolanar tərlan xəyalım,
Sənin ziynətin də məhəbbətimdir.

İsti yuvamızın keşiyində dur,
Sən həsəd aparma dövlətə-vara.
Gözəllik də budur, həyat da budur,
Gözəlim, aldanma parıltılara.

1978

XƏTRİMƏ DƏYMƏ

Bir gözələ baxan kimi
Ha deyirsən korlanmışam.
Yaralayıb sözün məni,
Qubarlanıb qorlanmışam.

Könül titrər bir nəsimdən,
Gül inciməz nəfəsimdən.

Saf gülüşdən, təbəssümdən
Sərvət yığıb varlanmışam.

Gözəlləri şad görəndə,
Dərdə-qəmə yad görəndə,
Yanaqlarda od görəndə
Şölə çəkib nurlanmışam.

Mən sənətin saf nuruyam,
Çeşmə kimi dumduruyam.
Uca dağlar məğruruyam,
Dağlar kimi qarlanmışam.

Saç ağarır, ömür keçir,
Nəğməsini demir, keçir.
Yarpaqlanıb puçur-puçur,
Çiçəklənib barlanmışam.

Gəl xətrimə dəymə, gülüm,
Qaşlarını düymə, gülüm.
Qoy açılsın düymə gülüm,
Yaz çayıtək gurlanmışam.

1979

«DÖRD TELLİ DURNAM»

(avtoqraf)

Fəriş, mübarəkdir 42 yaşın,
Bir düyün görməsin o qələm qaşın.
Ömrün iki qırxa çatan gündə də,
Kürdoğlu çiyninə söykənsin başın.

17/III/1980

Gözümdən könlümü gör,
Mənə bir də könül ver.
(Şəklin arxasına yazılıb)

30/VI/1980

MƏN UCA BİR DAĞAM, SƏNSƏ GÜNƏŞİM

Mən uca bir dağam, sənsə günəşim,
Günəşsiz gedərmi dumanım-çənim.
Sənin saf eşqinlə min çiçək açdı
Çeşməli, nəğməli, şehli çəmənim.

Bir qoşa söyüdük bulaq üstündə,
Bir qoşa bülbülük budaq üstündə.
Göz yaşımız daman torpaq üstündə,
Mən sarı sünbüləm, sən qızıl dənim.

Bahar çiçəyisən tufana düşmə,
Uçub gül üstündən tikana düşmə.
Bəsdir, canım-gözüm, gümana düşmə,
Baxıb sevinməsin kinli düşmənim.

Şəkər qat sözümə şirin dilinlə,
Nur çilə könlümə qara telinlə.
Əgər vaxtsız ölsəm sənin əlinlə,
Çiçəkdən toxunsun əlvan kəfənim.

Bizim ki. eşq adlı bir qalamız var,
Bir-birindən gözəl üç balamız var.
Daha nə dərdimiz, nə bəlamız var,
Gözün niyə dolur, başına dönüm?!

Halaldır bu evin çörəyi-duzu,
Özümüz yaratdıq öz baxtımızı,
Mən bahar səması, sən dan ulduzu,
Həmişə mənimsən, mənimsən, mənim.

Könülsüz içilən şərbət ağıdır,
İnamsız məhəbbət can dustağıdır.
Ömrümün qaralmaz çilçırağıdır,
Şeirim, məhəbbətim, bir də vətənim.

1980

«TOY KARVANI»

(avtoqraf)

Sevdiyi qıza da qurban olaydım,
Ağlına, hüsnünə heyran olaydım.
Bu Nasir balamın toy karvanında
Qabağa düşəydim, sarvan olaydım.

28/XI/1981

EŞQİMİZ

(Ömür-gün yoldaşım əziz Fəridə xanımın ad gününə)

Mən əllidə, sən qırx beşdən yuxarı,
Ömrümüzə bir sarvandır eşqimiz.
Mən ulduzam, sən bədr olmuş gözəl ay,
Şəfəqlənmiş asimandır eşqimiz.

Gün oldu ki, günümüzə daş yağdı,
Gün oldu ki, gözümüzdən yaş yağdı.
Bahar çağı üstümüzə qış yağdı,
Sarsılmayaq, qəhrəmandır eşqimiz.

Hərdən düşdü gileyimiz, davamız,
Bir xoş sözlə tez alındı havamız.
Darıxmadıq dar olsa da yuvamız,
Hüdud bilməz bir cahandır eşqimiz.

Andın, əhdin toxunmadı bir daşa,
Mən ölsəm də bu qeyrətlə yüz yaşa.
Ah çəkmədin bər-bəzəyə, daş-qaşa,
Gövhər dolu göy ümmandır eşqimiz.

Yaxşı gündə məni yaman qısqandın,
İnanmadın, zaman-zaman qısqandın.
Sevgimizi sən nahaqdan qısqandın,
Bundan yana bağrıqandır eşqimiz.

Tale bizə həyan oldu, hay verdi,
Xoşbəxtəm ki, səni mənə tay verdi.
Bir cüt oğul, bir gözəl qız pay verdi,
Üç övlada çıraqbandır eşqimiz.

Nəvə görək, ömrümüzdən yarıyaq,
Bir qocalaq, bir yuvada qarıyaq.
Bu dünyanı nahaq qandan qoruyaq,
Zəmanədən nigarandır eşqimiz.

17/III/1983

***

Mənim nazlı Fərişim halal evin qızıdır,
Şeirimin gövhəridir, şəkəridir, duzudur.
Üç bala böyütmüşük bir müqəddəs yuvada,
Süsən – Günəş, İlham – Ay, Nasir – dan ulduzudur.

8/III/1984

BAXMA DƏN DÜŞƏN SAÇIMA

Görürsənmi, Qoşqar necə gül-çiçəklidir, gözəlim!
O da təzə gəlin kimi ağ örpəklidir, gözəlim!
Di dur gəzək çəmənləri, baxma dən düşən saçıma,
Ömrün bahar əyyamıdır, bu ağ tüklərə acıma,
Fikrimdəki şimşəklərin bunlar şəklidir, gözəlim!

MƏNƏM

(Ömür-gün yoldaşım Fəridənin ad gününə)

Sən bir altun üzük olsan,
Onun yaqut qaşı mənəm.
And içdiyin bir sevdanın
Yazı mənəm, qışı mənəm.

Uzaq yolda qara düşsən,
Bir çıxılmaz tora düşsən,
Dərd əlində dara düşsən,
Gözlərinin yaşı mənəm.

Sən dəryasan, mən də adan,
Kürdoğluya gəlsin qadan.
Köçəndə də bu dünyadan,
Məzarının daşı mənəm.

17 mart 1984

ƏLLİNİ GİZLƏDƏK XATİRƏLƏRDƏ

Əllini gizlədək xatirələrdə,
Baxma qar yaşıma, bir yaşındayam.
Öpüb-oxşa məni, ovundur məni,
Yaman ərköyünəm, kür yaşındayam,
Mən bu gün uşağam, bir yaşındayam.

Əllini gizlədək xatirələrdə,
Ömrün yoxuşları qarmış-boranmış,
Çıxan yar axtarmış, düşən yar anmış,
Özüm yaranmadan, dərdim yaranmış.
Araz yaşındayam, Kür yaşındayam,
Mən bu gün uşağam, bir yaşındayam.

Əllini gizlədək xatirələrdə,
Bəzən ucalmışam, bəzən enmişəm.
Bəlkə milyon kərə yanıb sönmüşəm.
Yağışa, küləyə, oda dönmüşəm.
Torpaq yaşındayam, yer yaşındayam,
Mən bu gün uşağam, bir yaşındayam.

Əllini gizlədək xatirələrdə,
Hardadır axırım, nədir əzəlim?!
Zaman təkləməmiş, qoşa gəzəlim.
Könlümü sındırma, mənim gözəlim,
Hələ səninkiyəm, ər yaşındayam,
Mən bu gün uşağam, bir yaşındayam.

1984, 15 iyun

FƏRİŞƏ 8 MART TƏBRİKİ

Bu bayram günündə gəl öpüm səni,
Gülüm, nə küs məndən, nə inci məndən.
Könlümü, şeirimi vermişəm sənə,
İstəmə nə gövhər, nə inci məndən.

8 mart 1986

OTUZ İLDİR GÖZLƏRİNİ GÖRDÜYÜM

(Ömrümün, günümün yaraşığı
həyat yoldaşım Fəridə xanıma)

Otuz ildir gözlərini gördüyüm,
Otuz ildir yanıram bu oda mən,
Qərq olmuşam bu tilsimli dəryada,
Otuz ildir tapmıram bir ada mən.

Otuz ildir pərvanəyəm gözünə,
Bu gözlərdə atəşinə, közünə.
Otuz ildir göz dikmişəm üzünə,
Göz yummuşam şöhrətə mən, ada mən.

Otuz ildir bu səmanın quşuyam,
Gah sevinci, gah sellənən yaşıyam.
Heç bilmirəm sərrafam, ya naşıyam,
Bu gözlərdə ömür verdim bada mən.

Otuz ildir orda çarpır ürəyim,
Çiçəklənər min bir arzum, diləyim.
Qeyri mənzil deyil mənim gərəyim,
Axtarmaram özgə yanda oda mən.

Otuz ildir nur aldım bu çıraqdan,
Könül doymaz bu dupduru bulaqdan.
Hərdən-birdən ağlatsam da nahaqdan,
Gözlərində dönməmişəm yada mən.

Otuz ildir ulduzumu tapmışam,
İki oğul, bir qızımı tapmışam.
Qara gözdə gündüzümü tapmışam,
Gərək salam bu dünyaya səda mən.

Otuz ildir gözlərini gördüyüm,
Şəfəqindən söz çələngi hördüyüm.
Otuz ildir sənə könül verdiyim,
Bu gözlərin, bu ürəyim, bu da mən.

17/III/1986

«QUZULAR DAĞA ÇIXDI»

(avtoqraf)

Daşqına, Toğrula əziz nənəsən,
Mənim gözlərimdə bircə dənəsən.

Gah çiçək olursan, gah da gicitkan,
Məni dalayırsan hərdən yenə sən.
Səninəm, qamətim qarmaq olunca,
Küsəyən, ağlağan uşaq olunca.

18/V/1986

YARIMIŞIQ BİZ

(Ömür-gün yoldaşım əziz Fəridənin
əlli yaşına)

Əlli dörd yaş mənim, əlli yaş sənin,
Bəzəyin nə qızıl, nə daş-qaş sənin.
Qara saç, qara göz, qara qaş sənin,
Sanma ki, qocalıb qarımışıq biz,
Sevmişik, yanmışıq, yarımışıq biz!

Qorxmadıq dünyanın bəd gərdişindən,
İblis gülüşündən, naməd işindən.
Şöhrət tilsimindən, tamah dişindən
Halal yuvamızı qorumuşuq biz,
Sevmişik, yanmışıq, yarımışıq biz!

Tərlan uçurtmuşuq qucağımızdan,
Ocaqlar qalanıb ocağımızdan.
Bulaqlar ayrılıb bulağımızdan,
Elə bilməsinlər qurumuşuq biz,
Sevmişik, yanmışıq, yarımışıq biz!

İldırımlar saçan dərdin, kədərin
Selləri amansız, girdabı dərin.
Səadət oğrusu qara günlərin
Tutub əl-qolunu sarımışıq biz,
Sevmişik, yanmışıq, yarımışıq biz!

Vaxtsız yağdısa da saçımıza qar,
Hələ qəlbimizdən köçməmiş bahar.
Yaxşılar yanında öz yerimiz var,
Yaxşını yamandan arımışıq biz,
Sevmişik, yanmışıq, yarımışıq biz!

17 mart 1988

SƏN ALLAH QOY ŞEİR YAZIM

Bazar qan ağlayır deyə,
Bu qədər ah-zar eyləmə.
Gəl məni bizar eyləmə,
Sən Allah qoy şeir yazım.

Dünya bir gün düşər çəmə,
Divan tutar ağlıkəmə.
Ət tapılmır, cəhənnəmə,
Sən Allah qoy şeir yazım.

Onsuz da acıdır həyat,
Qoy düşünüm rahat-rahat.
Soyundur əynimi də sat,
Sən Allah qoy şeir yazım.

Sənsən ömrürmə yaraşıq,
Gülüşün könlümə işıq,
Yağ yoxsa da bircə qaşıq,
Sən Allah qoy şeir yazım.

Qələm dilə gəlib deyir,
Şəri taxtdan salar xeyir.
İlahi nemətdir şer,
Sən Allah qoy şeir yazım.

Məndən incik olma, gülüm,
Qənimətdir ayım, ilim.
Gödəlir ömür mənzilim,
Sən Allah qoy şeir yazım.

12/IX/1991

ÖMRÜM-GÜNÜM, AĞLAMA

Göz yaşıyla yola salma yarını,
Ömrüm-günüm, taxtım-tacım, ağlama!
Şəfa verər loğmanların loğmanı,
Yaman gündə anam, bacım, ağlama!

Həm kövrəksən, həm zülmü xoş zalımsan,
Gah bibərim, gah da beçə balımsan.
Xoşbəxtəm ki, sən qanadım, qolumsan,
Bir dərdimsən, yüz əlacım, ağlama!

Haqq özüdür şairlərin pənahı,
Üzümüzə açıq olur dərgahı.
Məlul baxma, sevindirmə bədxahı,
Tale verən bar ağacım, ağlama!

Qorxma, yenə Tanrı saxlar amanda,
Qəmdən qeyri nə görmüşük cahanda.
Son görüşdə, son nəfəsdə, son anda
Təkcə sənsən ehtiyacım, ağlama!

Sağ-salamat yuvamıza dönərəm,
Qollarının arasına sinərəm.
Şeir deyib sazla-sözlə dinərəm,
Gəl boynunu bir də qucum, ağlama!
Yaman gündə anam-bacım, ağlama!

12/XI/1991

MƏGƏR QIYARDIMMI

(Fəridəmə)

Otuz ildən çoxdur həsrət qoymuşam,
Gözəl Quba kimi gülzara səni.
Yaman gileylisən axır zamanlar,
Yoxsa gətirmişəm bezara səni.

Xumar gözlərini ülkər sayardım,
Bütün kainatı səndə duyardım.
Xəstəlik olmasa məgər qıyardım
Göndərim dükana, bazara səni.

Dərd məni tez tapdı, səni tapmasın,
Halal yuvamızı çalıb-çapmasın.
Dövran əlimizdən sevinc qapmasın,
Qoy Tanrı salmasın azara səni.

Gözəl giley bilməz şair yanında,
Hüsnün cilvələnir hər dastanımda.
Dükan-bazarı var o dünyanın da,
Qoysunlar mənimlə məzara səni.

30/V/1992

«MİN BİR BAYATI» KİTABINA

(avtoqraf)

Gözüm nuru Fəridə,
Ağlar könlüm kiridə.
Tilsimli sevgisiylə
Xeyir eylər şəri də.

3/XII/1992

FƏRİDƏNİN LEYLAFƏRİ

Gec açılır, tez soluxur, biçarə dibçək neyləsin?
Küləkdə yumur gözünü, əsməsin külək neyləsin?
Bakıda adam saralır, bu zərif çiçək neyləsin?
Gülümsərdi şəfəqlərə yaz səhəri, yay səhəri,
Fəridənin leylafəri.

Qədəh-qədəh düzülərdi yaşıl-yaşıl sarmaşığa,
Eyvanımız qərq olardı bənövşəyi bir işığa.
Yaraşıqlı söz gəzirəm o ilahi yaraşığa,
Bu kəpənək xəyalımı uçurmuş nə vaxtdan bəri,
Fəridənin leylafəri.

Qubada bağı-baxçanı hey bəzərdi naxış-naxış,
Baxış istər bu tamaşa – vurğun baxış, heyran baxış.
Tez yumulur, qoymur düşə qədəhə bir qətrə yağış,
Yada salır sevgi dolu, həsrət dolu xoş günləri,
Fəridənin leylafəri.

Ürəyimdə işıq saçır, qaralmayan köz kimidir,
Gödək ömrü dildə qalıb, deyilməyən söz kimidir.
Bu çiçəyin hər qədəhi dilək dolu göz kimidir,
Bizə səhər töhfəsiydi Məcnun dərdli Leyla pəri,
Fəridənin leylafəri.

Deyirlər ki, bu leylafər bizim Quba gözəlidir.
Dibçəkdə nazını çəkən sevgilimin öz əlidir.
Çiçək idi, dönüb oldu Kürdoğlunun söz gövhəri,
Fəridənin leylafəri.

9/IX/1993

FƏRİDƏMƏ

Bir ömür boyunca naznazım mənim,
Qara brilyantım, almazım mənim.
Özün bilirsən ki, gözlərindədir
Həm payızım-qışım, həm yazım mənim.

Tənəli bir nazla çatılır qaşın,
Gözündə boğulur gizli göz yaşın.
Deyirsən tez verdin ömrünü yelə,
Gözəllər yolunda ağardı başın.

Sənindir, gözəlim, səsim-nəfəsim,
Bu şerim-dastanım, eşqim, həvəsim.
Ölüm aramızı kəsincə bir gün,
Ömrümü dünyadan mən özüm kəsim.

Eşqin şərbətindən piyalə doldur,
Olan olub keçdi, olmazı oldur.
Bu uzun gecədən bir kam alaq biz,
Ömür dedikləri bir addım yoldur.

Kəsilib taqətim, dönüb dövranım,
Milçək qanadından yel çəkir canım.
Belə qəmli baxma, gözünə qurban,
Uca Tanrımızdır mənim loğmanım.

30/I/1994

FƏRİDƏNİN AD GÜNÜNƏ

Oğul paylı Fəriş, qız paylı Fəriş.
Tale qismətindən yüz paylı Fəriş.
Bozayda yetişdin əlli altı yaşa,
Ürəkdən istərəm səni yüz yaşa!

Kətə bişir bizə, ət qızart bizə,
Bozartma üzünü, bozaylı Fəriş,
Şair Kürdoğlutək həmtaylı Fəriş,
Bozartma üzünü, bozaylı Fəriş!

17/III /1994

AY MƏNİM QARABUĞDAYIM

Üzüm ağdır, alnım açıq,
Ay mənim qarabuğdayım.
Haqq calamış bir ağacıq,
Tək sənsən günəşim, ayım,
Ay mənim qarabuğdayım!

Gözün baxtımın çırağı,
Qüdrətdən şeir bulağı.
Qısqanım sarını, ağı,
Yox taledən qeyri payım,
Ay mənim qarabuğdayım!

Dövran məni çox sınadı,
Tökdü başıma gürşadı.
Sən oldun ömrümün dadı,
Vəsfini aləmə yayım,
Ay mənim qarabuğdayım!

Çoxalıb dərdim, əndişəm,
Kövrəkləşib könül şüşəm.
Hay-hayımdan əl üzmüşəm,
Qalıb ancaq ki, vay-vayım,
Ay mənim qarabuğdayım!

Qaraqaş, qaragöz pəri,
Sənindir sinəm gövhəri.
Şirinlət gələn günləri,

Sevinib ömürdən sayım,
Ay mənim qarabuğdayım!

Bir sünbüləm, sənsən dənim,
Qısqanclıqdır bizə qənim,
Halaldır yatağım mənim,
Halaldır çörəyim-çayım,
Ay mənim qarabuğdayım!

Yazılana yoxdur pozu,
Bəsdir daha a naz-nazı.
İnsaf eylə, zalım qızı,
Yarım, sevgilim, həmtayım,
Ay mənim qarabuğdayım!

Altmışa yetmişəm daha,
Batmamışam bir günaha.
And olsun ulu dərgaha,
Eşqimdir uca sarayım,
Ay mənim qarabuğdayım!

22/VI /1994

FƏRİDƏYƏ

Bir şirin dodağın söz dəlisiyəm.
Quba ahusunun göz dəlisiyəm.
Hər könül bir sənəm divanəsidir,
Mən öz Fəridəmin öz dəlisiyəm.

7/III/1995

***

Sağ ol, Fəriş, mən getdim,
Elə bilmə şən getdim.
Axtardım künc-bucağı
Tapmadım bir dən getdim.

7/ III/1995

FƏRİŞİMƏ

Sən Allah incitmə xəstə könlümü,
Əlli yeddi yaşlı gözəlim mənim.
Altmışdan yuxarı gedir karvanım,
Gün keçdi, tökülür xəzəlim mənim.

Şəfqətli yaranır şair olanlar,
Gözəllik eşqindən ilham alanlar,
Dilimi, əlimi çalsın ilanlar,
Düşməndir öz dilim, öz əlim mənim.

Ceyran gözlərinə görməmişəm tay,
Könlümdə kimsə yox tək səndən savay.
Qısqanma bu yaşda, daha qoca say,
Vallah, məzəlimsən, məzəlim mənim.

İstəsən ağı ver, şövq ilə içim,
Dizinə baş qoyb dünyadan köçüm.
Bağrım ki, yarılıb, tökülüb incim,
Qalıb quruca bir gəzəlim mənim.

Könlümün gözüylə dünyaya baxdım,
Qaya bulağıyam, süzülüb axdım.
Artırma dərdimi az qalır vaxtım,
Sən oldun axırım-əzəlim mənim,
Gün keçdi, tökülür xəzəlim mənim.

16-17/ III/1995

***

Heyranam Qubada «alma qəndil»ə,
Necə də oxşarmış alma qəndilə?
Bu bağın bağbanı sənmisən, ay qız,
Belə dadbir olub alma qənd ilə?

***

Kürdoğlunun canı yar.
Yoxsul evin xanı yar.
Nə düyü var, nə də yağ,
Qaynat bu yarmanı yar.

SƏNİNKİYƏM MƏN

Yüz il gözlərinə baxsam doymaram,
Dünyadan doyunca sənինkiyəm mən.
Peyman bağlamışıq göz yaşımızla,
Bir ömür boyunca sənինkiyəm mən.

Qəlbi yalan sözlə bulanmış yarım,
Dar gündə sınandı mənim ilqarım.
Başıma toplanıb könül dostlarım,
Nəbzimi sayınca sənինkiyəm mən.

Baxtını yarıdan özüdür insan.
Bizim yolumuza çıxmasın hicran.
Qanlı qılıncını sıyırıb zaman
Ömrümə qıyınca sənինkiyəm mən.

SİZƏ QURBAN OLUM MƏN

(Fəridə nənənin dilindən)

Qoca bar ağacıyam, nəvələr çiçəklərim.
Dalaşqan dəcəllərim, oynağan göyçəklərim.
Dupduru gözlərində sayrışır diləklərim.
Tonbul ağ əllər ilə dartılır ətəklərim,
Gör kimdir dörd yanımda belə bülbültək ötən,
Afaq, Aysel, Çinarə, Daşqın, Toğrul və Şaiq,
Bir də balaca Aytən.

Daşqın fırça götürüb çəkir mavi dənizi,
Toğrul ev quraşdırır, toz-torpaq olub dizi.
Aysel piano çalır, gülümsəyir gül üzü,
Afaq kitab oxuyur, tez-tez deyir bu sözü:
«Əzizdir gözəl ana, əzizdir gözəl vətən!»
Ona səs verir Aysel, Daşqın, Toğrul, Çinarə,
Bir də Şaiqlə Aytən.

Uca dağlarımızdan qaçar qanlı yağılar,
Zəfər bayrağımızdan gözəl günlər doğular.
Yenə də kəndimizdə qızıl naxır sağılar.
Bulaqların başına qız-gəlinlər yığılar.
Səsləyər uşaqları ağ şəlalə, göy çəmən,
Qaçar çəmən boyunca Afaq, Aysel, Çinarə,
Daşqın, Toğrul və Şaiq, bir də balaca Aytən.

Uşaqların and yeri – şəhidlərin məzarı,
Ah, bu qanlı savaşlar yetəydi sona barı.
Yandırmasın alovlar pöhrə-pöhrə çinarı.
Nağıl qəhrəmanıtək tez ucaltsın onları
Bağımızda şirin bar, tarlamızda qızıl dən,
Danışıram, dinləyir Afaq, Aysel, Çinarə,
Daşqın, Toğrul və Şaiq,
Bir də balaca Aytən.

Gül balalar, boy atın, qəhrəman əsgər olun,
Həcər kimi yenilməz, Nəbi təki nər olun.
Gələn azad günlərə günəşli səhər olun.
Bütün tay-tuşunuzla sizə qurban olum mən.
Afaq, Aysel, Çinarə, Daşqın, Toğrul və Şaiq,
Bir də balaca Aytən!

1995

FƏRİŞİMƏ 8 MART TƏBRİKİ

A nazlı Fərişim, baxtımın yarı,
Daha mən qocayam, sən də ki qarı.
«Can» dediyin yerdə «çor» da deyirsən,
Bir sözün bal olur, yüz sözün arı.
Vallah, gözəllərə baxa bilmirəm,
İxtiyar çağımda qısqanma barı,
A nazlı Fərişim, a gözəl qarı!

8/ III/1996

FƏRİDƏNİN AD GÜNÜNƏ

Canım, gözüm, əlli səkkiz öz yerində,
And içdiyin məhəbbətin qırx yaşı var.

İki qardaş, bir bacını bizə verən,
Bar gətirmiş səadətin qırx yaşı var.

İşıqlıdan, Şahdağından rişələnən,
Aydan arı bir külfətin qırx yaşı var.

Neçə kərə qəm qarışdı bulanmadı,
Bu çeşmənin, bu şərbətin qırx yaşı var.

Gözlərində qırıq-qırıq şölələnən,
Xoş ülfətin, pak ismətin qırx yaşı var.

Bizdən əzəl bəlkə dünya heç yox imiş,
Sanıram ki, ülviyyətin qırx yaşı var.

Hər məhəbbət bir məmləkət, bir dünyadır,
Bu gün bizim məmləkətin qırx yaşı var.

Qoy var olsun eşqi halal ocağımız,
Tanrı verən bu qismətin qırx yaşı var!

Qurban qara gözlərinə bu Kürdoğlu,
Gözündəki şeriyyətin qırx yaşı var!

17.3.1996

QARA TEL

Bizi qərq etsə də neçə qanlı sel,
İlləri yarpaqtək aparsa da yel
Nə qəlbin qocaldı, nə maral gözün,
Nə də qaşın üstə bir kom qara tel.

Bu qaraca telə sevinirik biz,
Gənclik nişanıtək əzizdir, əziz!
Könlümün quşu da sığınmış ona,
O kiçik bir ada, saçın ağ dəniz.

Bu telin sayınca ömrün uzansın,
Eşq odu qəlbində yandıqca yansın.
Yüzüncü mənzilə çatsan da bir gün,
Kürdoğlu sənlə qoşa dayansın.
Oynasın alnında bir kom qara tel,
Ruh versin ağ saçlı ixtiyara tel.

29/IX/1996

***

Çox zaman sözümə acılar qatdım,
Nahaqdan ağladıb, günaha batdım.
Qədrini bilmədim, vaxtsız qocaltdım,
Bağrıma basıram qarı vaxtında.

Sentyabr 1996

«YARALI TORPAĞIM, YARALI SEVGİM»

(avtoqraf)

Göy olsam günəşimsən, torpaq olsam baharım,
Özüm torpaq olunca, dönməz eşqim, ilqarım.
Mənim nazlı Fərişim, mənim şer sərrafım,
Sənsən, balalarımdır, bir də sözümdür varım.
Qoy gün doğsun üstünə, sənindir bu xəzinə,
Susamış maralımsan, gəl bu çeşmə gözünə.

1 mart 1997

BU ƏZİZ GÜNLƏRDƏ İNCİMƏ MƏNDƏN

(Könlümün sultanı,
gözümün işığı Fəridəyə)

Bu əziz günlərdə incimə məndən,
İnciklik görəndə yaz inciməsin.
Əzəlki sevgiylə naz eylə yenə,
Ceyran gözlərində naz inciməsin.

Bağrım yarasına sən oldun həkim,
Könül bir ölkədir, eşqinsə hakim.
Ayaq tozlarını gözümə çəkim,
Düşüb yol ağzına toz inciməsin.

Həm uca bir eşqin qalasıdır söz,
Həm də ki, başımın bəlasıdır söz.
Əzizdir, ürəyin balasıdır söz,
Belə soyuq baxma, söz inciməsin.

Haqq ucaltdı bizi eşqin taxtına,
Doğdun günəş kimi şair baxtına.
Çatdıq ömrümüzün ahıl vaxtına,
Gərəkdir ahıllar tez inciməsin.

Gözümün yaşıyla bir ocaq qala,
Əgər günahkaram at bu tonqala.
Gəl qalan günləri döndərək bala,
Könül inciməsin, göz inciməsin,
Kürdoğlü qəlbində söz inciməsin.

6/III /1997

SƏNİNKİYƏM

(Fəridənin ad gününə)

Sənինkiyəm, soyuq məzar torpağı
Mənim şair gözlərimə dolunca.
Öz sözümdən ağı deyib özümə,
Yana-yana saçlarını yolunca.

Bəxtim kəsib, sən olmusan əzəlim,
Ah çəkirsən, tüküldükcə xəzəlim.
Gözəlimsən, gözəlimsən, gözəlim!
Sənինkiyəm, qara yerin olunca.

Nazlı pərim, sən ha çəkdin nazımı,
Bir ayətək qorudun hər sözümü.
Sənինkiyəm, dərdli könül sazımı
Qoca fələk alıb daşa çalınca.

Səndən uzaq vallah əhli qürbətəm,
Bir şəkiləm, cansızca bir surətəm.
Sanıram ki, min il sənə həsrətəm,
Gözlərindən bir gün ayrı qalınca.

Bəhər götür, ömür barlı bağ ikən,
Söz yanında hələ üzüm ağ ikən.
Kürdoğlunun qədrini bil sağ ikən,
Gecə-gündüz çox mələrsən dalınca.

16/III/1997

QIŞI DA XOŞDUR QUBANIN

Qışı da xoşdur Qubanın,
Gül açan baharı kimi.
Orman üstə qar oynaşır,
Beçə vermiş arı kimi.

Könlümdə eşqin bülbülü,
Al yanaqda qızılgülü,
Sənəmlərin şirin dili,
Bağların nübarı kimi.

Dolmuş buludlar aylanır,
Qatarlanır, alaylanır.
Gədikdən günəş boylanır
Koroğlu Nigarı kimi.

Sözlərimdir qızıl dənim,
Qədrimi bilər vətənim.
Əyilməz vüqarım mənim,
Şahdağın vüqarı kimi.

Çinar meşənin dilbəri,
Qoynunda buzdan gövhəri.
Bədr olmuş ay – nazlı pəri,
Kürdoğlunun yarı kimi.

Quba, 28/I/1998

FƏRİŞİMƏ 8 MART TƏBRİKİ

Gəl mənim Fərişim, mələk sevgilim,
Yetdik altmış ilə, sevdalı gülüm.
Gözümün günahı varsa keç ondan,
Ancaq günahsızdır könlümlə dilim.
Qalan günləri də gedək yanaşı,
Yadıma saldıqca son ayrılığı,
Sızlayır, göynəyir bağrımın başı.
Sənin əm göylərdə günəş sönüncə,
Qocalıb, ovulub quma dönüncə.
Sənsiz ağlayacaq məzarım daşı.

8 mart 1998

ŞAM İŞIĞINDA

(Fəridənin 60 illiyinə)

Qırx ildir yandırmışıq eşqimizin şamını,
Bu şamın işığında biz dünyanı görmüşük.
Qorxunc qara kölgələr keçsə də üstümüzdən,
Ulduzumuz barışan asimanı görmüşük.

Kipriklə od götürdük üç pöhrəmiz bitincə,
Şeirin sona bülbülü şövqə gəlib ötüncə.
İynə gözündən düşən bir işığa yetincə,
Aya, günəşə həsrət qəm zindanı görmüşük.

Əriyib gömgöy buzu, çeşməmiz dil açanda,
Gözəl ümid pərisi bir dəm könül açanda.
Min bir diləyimizin bircəsi gül açanda,
Sanki cənnət deyilən asimanı görmüşük.

Çox mənəm deyənlərə haqqın əli dağ çəkib,
Gözü doymayanların gözünə torpaq çəkib.

Halal ocağımızdan dərd axır ayaq çəkib,
Baxışları tənəli hər nadanı görmüşük.

Hələ qış günəşidir, atəşi yox kamalın,
Yeri dəyişik düşür həqiqətlə xəyalın.
Eli qaçıb dağılan, yandırılan mahalın
Yaralı sinəsindən axan qanı görmüşük.

Kaş ki, yetəydi başa xeyirlə şər savaşı,
Məskənimiz olaydı yenə çeşmələr başı.
Yenə ayna sularda görünəydik yanaşı,
Yeddi ildir yuxuda o məkanı görmüşük.

Altmış dörddən, altmışdan qalxırıq yüzə sarı,
Qocalığın karvanı gəlməsin bizə sarı.
Yolumuz zülmət keçib, gedir gündüzə sarı,
Ayaqlarda sürünən kor dumanı görmüşük.

Eşqin ülviyyətinə tor qurmasa xəyanət,
Haqdan yanan ocağı tərk eyləməz səadət.
Dünyanın xilaskarı məhəbbətdir, məhəbbət,
Hər gün başımız üstə bu loğmanı görmüşük.

Eşq ilahəsi verdi Cəmşidin mey camını,
Doyunca nuş eylədim gözəllik ilhamını.
Qırx ildir yandırmışıq baxtımızın şamını,
Bu şamın işığında biz dünyanı görmüşük.

17/III/1998

60 İLƏ ÇATAN YAR

60 ilə çatan yar,
Hələ də naz satan yar.
Bu bəxtəvər günündə
Gül-çiçəyə batan yar.

Baxtımla baş-başayam,
Gərək yüz il yaşayam.
Qırx ildir ki, sənlə
Qol-boyunam, qoşayam.

Vallah mənəm ər kişi,
Eşqə peyğəmbər kişi.
Bu haram dünyamızda
Halal olmur hər kişi.

Şölə sən, pərvanə mən,
Eşqinlə divanə mən.
Düzərəm sözlərimdən
Boynuna dürdanə mən.

Şeirimlə dinim hər gün,
Sinənə sinim hər gün.
O qara gözlərindən
Nur saçdı günüm hər gün.

Gözünə heyran oldum,
Küsdün, bağrıqan oldum.
Söz açdım min gözəldən,
Bir sənə qurban oldum.

Əzizlənir adımız,
Gül açır muradımız.
Hüdudsuz dünyamızdır
Üç gözəl övladımız.

Axırım-əzəlimsən,
Şeirimlə bəzəlimsən.
Çiyninə nəvə qonur,
Bəxtəvər gözəlimsən.

Varmı bir qəmin sənin,
Mənəm həmdəmin sənin.

Qollarımın arası
Sonsuz aləmin sənin.

İncitdi bizi dünya,
Günahkar özü dünya.
Əyrini salmır saya,
Sınayır düzü dünya.

Ömür bir bağ olaydı,
Xəzan yasaq olaydı.
Mənim mələk qaynanam
Kaş bu gün sağ olaydı.

Nə munis sirdaş idi,
Sözləri daş-qaş idi.
Məhəmməd Mustafanın
Yarına adaş idi.

Dünyanı gördü getdi,
Özüylə dərdi getdi.
Sadıq əmi Qubada
Min divar hördü getdi.

Əli qabarlı kişi,
Alnı vüqarlı kişi.
Bircə oğul sarıdan
Könlü qubarlı kişi.

Küsənmədin baxta sən,
Darılmadın vaxta sən.
Altı gözəl böyütdün
Bir halal otaqda sən.

Sünbülüm dənə düşdü,
Həyatım yönə düşdü.
Altı gözəl pərinin
Biri də mənə düşdü.

Mariyə – böyük bacı,
Hər sözü dərd əlacı.
Yetmişi keçən ömrü
Həm şirindir, həm acı.

Bir eşqə çıraq oldu,
Bir bağa bulaq oldu.
Oğul müsibətindən
Sinəsi dağ-dağ oldu.

Hər evin öz işığı,
Ürəkdə söz işığı.
Valehi, Südabəsi,
Hikməti göz işığı.

Tez oyandı, gec yatdı,
Acıya şəkər qatdı.
Əlli il oymaq-oymaq,
Dərs dedi, saç ağartdı.

Bir evdə əzəl olmuş,
Hamıdan gözəl olmuş.
Hayıf ki. hər gözəllik
Axırda xəzəl olmuş.

İkincisi – Sənubər,
Sözləri inci-gövhər.
Bir nəslin hər dərdinə
Ömür boyu səfərbər.

Neçə nəslə nur verib,
Beyninə şüur verib.
Həyat imtahanında
Alnına qürur verib.

Uca bir amalı var,
Dəryaca kamalı var.

Həm alim təfəkkürü,
Həm şair xəyalı var.

Öyündük ad-sanıyla,
Elmiylə, ürfanıyla.
Min bir murada yetsin
Jaləsi, Orxanıyla.

Məhbubə bir mələkdir,
Dünyada bəlkə təkdir.
Həm iti bir qılıncdır,
Həm də tüldür, ipəkdir.

Tez itirdi yarını,
Fəxrini, vüqarını.
Ağartdı saçlarında
Əhdini, ilqarını.

Lənət olsun yamana,
Yaxşı boyandı qana.
Məhbubə üç övlada
Həm atadır, həm ana.

Mayisə gözəl pəri,
Anasının bənzəri.
Yaradan bu ürəklə
Yaradaydı bəşəri.

Bir ata möhnəti var,
Bir qardaş ülfəti var.
Atasının adını
Yaşadan Qüdrəti var.

Dərd əriş-arğac oldu,
Gün keçdi tarac oldu.
Məhbubun billur adı
Başımıza tac oldu.

Dördüncü mənim gülüm,
Öz Fəridəm – sevgilim.
Bəxtəvər şairəm ki,
Onunkudur qırx ilim.

Beşinci ulduz Nəzi,
Min gözəlin əvəzi.
Sevdiyinə tay tutar
Şahdağını, Kəpəzi.

Vüqarı, Rəşadı var,
Gül açan muradı var.
Gözəl Şəlalə kimi
Bir boyu şümşadı var.

Altıncı Tünzalədir,
Uca dağda lalədir.
Qaya çiynindən aşan,
Bir bəyaz şəlalədir.

Sonbeşik – sonuncu bar,
Ömrü-günü bəxtiyar.
İki tərlan, bir sona –
Üç ciyərparası var.

Xədicə bir dənədir,
İncidir, dürdanədir.
Əziz tutsun adını,
Bir nəsilə nənədir.

Gəl ay mənim Fərişim,
Sənlədir hər işim.
Az qalıb sona yetsin
Bü dünyayla görüşüm.

Qəlbimlə gördüm səni,
Kövrəltdi dərdim səni.

Quba – bir alma bağı,
Qubadan dərdim səni.

Nə ağsan, nə qarasan,
Mənimlə cüt parasan.
Arpaçayın selindən
Qurtardığım Sarasan.

Boran oldu, qar oldu,
Axırı bahar oldu.
Laçınlı Kürdoğluya
Qubalı qız yar oldu.

Quba – almalı diyar,
Ölüb qalmalı diyar.
Bir sənəmin eşqinə
Dərdin almalı diyar.

Sözüm varaqlar üstə,
Könlüm o dağlar üstə.
Yaşını keçirəydik
Billur bulaqlar üstə.

Gözlər o dağlar bizi,
Quşdan soraqlar bizi.
Özü düşmən əlində,
Yad eylər, ağlar bizi.

Zəmanə yağı bizə,
Verdi göz dağı bizə.
Abi-həyat verəydi
Məcnun bulağı bizə.

Hər nəslin öz kökü var,
Qoşası var, təki var.
Yığılaydı məclisə,
Qohum-qardaş nə ki, var.

Güləydim, ağlayaydım,
Çay kimi çağlayaydım.
Sənə dağlar döşündən
Güldəstə bağlayaydım.

Məclis aşıb-daşaydı,
Nəvələr oynaşaydı.
Göyə qalxıb torağay
Bizə nəğmə qoşaydı.

Oynayaydın naz ilə,
Quş kimi pərvaz ilə.
Kürdoğlunun məclisi
Rövnəq tapar saz ilə.

Pay verə neydən bizə –
Çoban güneydən bizə.
Seyyid babanın ruhu
Bir baxa göydən bizə.

Şeirdir eşq ayəmiz,
Sevgimiz – sərmayəmiz.
Bir göy göyərçin olub
Gələydi Sehrayəmiz.

Quruyaydı göz yaşı
Bizi görüb yanaşı.
Nur saçaydı atamın,
Anamın məzar daşı.

Kəklik güneydə qoşa,
Tərlan da, ley də qoşa.
Fizzə-Həsən ulduzu
Yanaydı göydə qoşa. *

Bakı, 1998

* Şeir yarımçıq qalıb.

***

Mən ki, öz ürəyimdə tək səni yaşatmışam,
Qalan olub-olmazın kökünə daş atmışam.
Yanıb külə dönərdim şair olmasam əgər,
Odu sözə döndərib, sinəmi boşaltmışam.

1998

SİNƏMDƏ ÜRƏKSƏN MƏNİM

(Fəridənin 60 illiyinə)

Dilimdə diləksən mənim,
Evimə dirəksən mənim.
Daha nə deyim, ay Fəriş,
Sinəmdə ürəksən mənim.

Mübarəkdir altmış yaşın,
Dağlardan ucadır başın.
Qırx il dolandı başına
Xoşbəxt ömür-gün yoldaşın.

Üç balamın anasısan,
Sən ki, şair sonasısan.
Kürdoğlu bir mövlanadır,
Onu tanrı sanasısan.

Gözümdə mələksən mənim,
Baxtıma çiçəksən mənim.
Daha nə deyim, ay Fəriş,
Sinəmdə ürəksən mənim!

17/III/1998

***

Qocaldım, gözəlim, qocaldım yaman,
Get-gedə soyuyur ürəyimdə qan.
Gözlərin qurbanı yazıq canımı
Məndən də, səndən də alacaq cahan.

3/IV/1998

«TOVUZUM MƏNİM – OĞUZUM MƏNİM»

(avtoqraf)

FƏRİŞİMƏ YADİGAR

Üz qoydun üzümə sən,
Çıraqsan gözümə sən.
Yandın bir ömür boyu,
Şeirimə – sözümə sən.

31.8.1998

LAÇIN BƏNÖVŞƏSİ YADIMA DÜŞDÜ

Dərdim səhər-səhər bağçadan səni,
Gətirdim ad günü yara, bənövşə.
Laçın bənövşəsi yadıma düşdü,
Qanadı bağrımda yara, bənövşə.

Eşqimə təşbehdir incə tellərin,
Səndə nisgili var qızılgüllərin.
Dağlarda gördüyün xoşbəxt ellərin,
Çəkildi bağrına qara, bənövşə.

Atamın yurdunda düşmən at sürür,
Mələklər bağına şeytanlar girir.
Əjdaha yol kəsir, zəhər püskürür,
Nə yaman bağlanıb ara, bənövşə?!

Yetdi dövranımız yaman illərə,
Qırxqızın göz yaşı döndü göllərə.
Özünü qayadan atdı sellərə,
Neçə əsir düşən Sara, bənövşə.

Yağılar yol verə gedəm dağlara,
Açam qollarımı borana-qara.
Bir dəstə bənövşə bağlayam yara,
Orda çəksələr də dara, bənövşə.

Ah çəkər qayada Prometey mənə,
Füzuli dərdindən verər mey mənə.
Nə yer çarə qıldı, nə də göy mənə,
Bəs hara üz tutum, hara, bənövşə?!

Dərdim səhər-səhər bağçadan səni,
Gətirdim ad günü yara, bənövşə.
Laçın bənövşəsi yadıma düşdü,
Qanadı bağrımda yara, bənövşə.

17/III/1999

«ZİYALIMIZ - ZİYAMIZ»

(avtoqraf)

EVİMİZİN ÇIRAĞI FƏRİDƏYƏ

Yuxulara inanma, sən bu həyata inan,
Ağır dərd içində də toya-büsata inan.
İlahi dərgahına qoşa gedər ruhumuz,
Ruhların oylağına – bu kainata inan.
Yuxulara inanma, ancaq həyata inan.

30.8.1999

***

Gözəlim Fəridə, eşqinlə yandım,
Cövrünə dağ kimi dözdüm, dayandım.
Özüm adaşıyam imam oğlunun,
Səni də bir imam övladı sandım.

1999

FƏRİŞİMƏ

(8 mart töhfəsi)

Biz ki ömrümüzə ara çəkmədik,
Bu gundən belə də ara düşməsin.
Aydan da, gündən də safdır eşqimiz,
Üstünə bir zərrə qara düşməsin.

Sınaqdan ki, çıxıb hər ülfətimiz,
Andımız, əhdimiz, sədaqətimiz.
Allaha yalvar ki, məhəbbətimiz
Qoca vaxtımızda dara düşməsin.

Ömrümün ən gözəl bir çiçəyisən,
Vəfalı, şəfalı yar çiçəyisən.
Sən xəccəgülüsən – qarçiçəyisən,
Ancaq ki taleyin qara düşməsin.

Hər kəs eşqimizə qurursa tələ,
Gərək özü düşüb zavala gələ.
Kürdoğlu qələmi dürr saçır hələ,
İnsafmı töhfəsi yara düşməsin.

7/III/2000

«HƏR ŞƏHİD BİR NƏĞMƏDİR»

(avtoqraf)

Ağlayırsan, nə zaman ki adı gəlir Laçının,
Elə bil ki, ürəyinə odu gəlir Laçının.
Qazan asıb düşünəndə əziz ata yurdumu,
Bu nemətdən gözəl-gözəl dadı gəlir Laçının.

15.3.2000

«İMANA-DİNƏ GƏLDİM»

(avtoqraf)

FƏRİŞƏ

Mənsiz döyünərmi sinəndə ürək,
Ad günün, şad günün yüz yol mübarək!
Tale güzgüsündə uca Tanrının
Qoşa görünərik axır günədək.

16.3.2000

SƏNİN ŞAİRİNƏM

Sənin şairinəm, var olduqca mən,
Əzəldən mənsəbə, şöhrətə yadam.
Mən yaz torağayı, sən yaşıl çəmən,
Fərəhli nəğməmlə qoynunda şadam.
Şərqi deyə-deyə qalxaram göyə,
Dönərəm sevgilim darıxar deyə.

DOLANIRSAN BAŞIMA SƏN

(Fərişə)

Kövrəlirik, ağlayırıq,
Dolanırsan başıma sən.
Hər qətrədə bir can olsa,
Verərdin göz yaşıma sən.

Yazım keçdi, gözündə nəm,
Tapan yoxdur dərdə məlhəm.
Bir xəstə şairə həmdəm,
Düşdün axır qışıma sən.

Əzəldən gözü-könlü tox,
Xain gözə batan bir ox.
Cavanlıqdan min kərə çox,
İndi gəldin xoşuma sən.

Qocayam deyə ağlama,
Bir də bağrımı dağlama.
O qədər də bel bağlama
Kəm ağlıma-huşuma sən.

Ağır illər axıtmısan,
Qəlbimi çox ovutmusan.
Var ol, nələr oxutmusan,
Qəmli könül quşuma sən.

Gecə-gündüz yana-yana,
Göz yaşın döndümü qana?!
Yalvarıban yaradana,
Yaş caladın yaşıma sən.

21/IX/2000

AD GÜNÜN MÜBARƏK

Peyğəmbər yaşına çatmısan bu gün,
Qoy bundan sonra da ömrün uzansın.
Qarşıda gözləyir səni toy-düyün,
Evində bir gəlin çırağı yansın,
Qoy bundan sonra da ömrün uzansın.

Qoşa sinə gərək hər dərdə-qəmə,
Günümüz, ayımız haqqın qisməti.
Tanrı kölgəsindən baxaq aləmə,
Qoymayaq qocalsın eşqi, ülfəti.
Ayımız, günümüz Tanrı qisməti.

Mən gedər olsam da əyilmə dərdə,
Heç kəs bu dünyayla qalmır baş-başa.
Ad günün mübarək, nənə Fəridə,
Əzəlki ilqarla sən məğrur yaşa,
Şükür ki, hələlik gedirik qoşa.

17/III/2001

BİZ Kİ AYRILMAZIQ

(Fəridəyə)

Səni mələk sandım əzəldən, mələk,
Biz ki, ayrılmazıq qoşa qumrutək.
Başımız üstündə haqq kölgəsi var,
Hələ eşqin ilə çarpacaq ürək,
Biz ki, ayrılmazıq qoşa qumrutək.

26/IV/2001

ALTMIŞ DÖRD YAŞIN

Mənimlə bəlalar çəksə də başın,
Gülüm, mübarəkdir altmış dörd yaşın.
Şükür böyütmüşük üç balamızı,
Bu şirin nəvələr ömür daş-qaşın.
Qaşın həmənkidir, gözün həmənki,
Bal-şəkər qatılan sözün həmənki.
Mənim ucumdandır indi tələşın,
Məğlub olsam əgər dərdlə savaşda,
Tale yazdıranda adımı daşda,
Leysana dönməsin onda göz yaşın.
Can Fəriş, səksənə, doxsana ucal,
Mənsiz sözlərimin qayğısına qal.
Kövrək nəğmələrim könül sirdaşın,
Bu gün mübarəkdir altmış dörd yaşın.

17/3/2002

EŞQİMİN BİR DƏNƏSİ

Nəzərindən salmamış bizi ruzigar hələ,
Qönçə diləklərimiz gətirəcək bar hələ.
Bu dünya qapısından çıxmağa çox var hələ,
Sanma ki, baxt ulduzum sönəsidir, sönəsi,
Ay Daşqının, Toğrulun, Şaiqin gül nənəsi!

Ağır dərdin hövlündən ağlım-huşum itmişdi,
Ölüm gəlib evimin kandarına yetmişdi.
Şeirimin pərisi də baş götürüb getmişdi,
Daha peşiman olub dönəsidir, dönəsi,
Ay Daşqının, Toğrulun, Şaiqin gül nənəsi!

Odu soyumuş qanım yenə kükrəyib coşar,
Könlümün qızılquşu qıy vurub dağlar aşar.
Təbimin kövrək sazı təzə nəğmələr qoşar,

Gövhər yetirə bilməz hər şairin sinəsi,
Ay Daşqının, Toğrulun, Şaiqin gül nənəsi!

Dar ayaqda, dar gündə İlham qolum-qanadım,
Gözümdə dağlar çapan, dağ vüqarlı Fərhadım,
Çinarənin, Aytənin dilindən düşmür adım,
Onlar şair babanın incisi-dürdanəsi,
Var ol ay beş nəvənin mehriban gül nənəsi!

Yamanca çaş-baş salır sağ olmuş Nasir bizi,
Min bir xəyala saldı bu tilsim, bu sirr bizi.
İntizar, nigaranlıq qılınctək kəsir bizi,
O da ala buluddan enəsidir, enəsi.
Ay Daşqının, Toğrulun, Şaiqin gül nənəsi!

Bu Novxanı bağını gülzar eyləyən əllər
Bar yığsın arzusundan ötüb keçdikcə illər.
Laçını yada salır bu yeddi rəngli güllər,
Dərd gərək bu dərd ilə danışası, dinəsi,
Ay Daşqının, Toğrulun, Şaiqin gül nənəsi!

Allah özü saxlasın Süsənimlə Ruslanı,
Dünyaya qaytardılar can üstdəki bir canı.
Həm onlar, həm də sənsən Kürdoğlunun loğmanı,
Məndən incik dolanma, eşqimin bir dənəsi.
Ay Daşqının, Toğrulun, Şaiqin gül nənəsi!

21/VIII/2002
Novxanı

AĞLAŞAQ

(zarafatyana)

Mən qocaya döndüm, sən də qarıya,
Taxta sinəmizə döyüb ağlaşaq.
Həna yaxmaq ilə gün geri dönməz,
Yaxın gəl, bayatı deyib ağlaşaq.

Düz addım atmağa qalmamış halın,
Gündə bir iniltin, dərdin, zavalın…
Geysən də yaraşmır yaşılın, alın,
Qara günümüzü geyib ağlaşaq.

Zirvəyəm, nur saçır başımın qarı,
Alnımda bir eşqin enməz vüqarı.
Tənəli sözləri sən demə barı,
Dönük baxtımızı söyüb ağlaşaq.

Tale buxov olmuş ayağımızda,
Zaman təbil çalır qulağımızda,
Hicran yuva qurmuş budağımızda,
Dərdli başımızı əyib ağlaşaq.

Xətrinə dəyməsin Kürdoğlu sözü,
Dəyişik salırsan əyrini, düzü.
Biz görə bilmərik doxsanı, yüzü,
Domdom halvasından yeyib ağlaşaq.

FƏRİŞİN ALTMIŞ BEŞ YAŞI

Fəriş, gəlib çatdın altmış beş yaşa,
Əlli ilə yaxın gəlmişik qoşa.
Bu evdə işığın gur yansın sənin,
Mən yetmiş yaşımda dönsəm də daşa.
Yaşa, qurban olum, yaşa, sən yaşa!

17/III/2003 (son şeir)

FƏRİDƏ
ALIŞANLI

SƏNSİZ OLANDA

KEÇƏN GÜNLƏRİMİ QAYTARAYDILAR…

Fəriş, gəlib çatdın altmış beş yaşa,
Əlli ilə yaxın gəlmişik qoşa.
Bu evdə işığın gur yansın sənin,
Mən yetmiş yaşımda dönsəm də daşa,
Yaşa, qurban olum, yaşa, sən yaşa!

(17.03.2003)

Ad günümdə mənə yazdığın sonuncu şeirdir bu, Hüseyn! Yadındamı bu şeiri oxuyanda necə incidim səndən? «Sənsiz bir ömür nəyimə gərək» – dedim. Acı bir təbəssümlə üzümə baxdın. «Sən güclüsən, dözümlüsən. Mənim yoxluğumdan sınma, əyilmə. Övladlarımıza dayaq olmaq üçün, şeirlərimi qorumaq üçün yaşa. Evimizin işığı gur yananda mənim ruhum da sevinər» – dedin. Mən sənինlə güclüydüm, sənինlə dözümlüydüm, Hüseyn! Ömrünün ən qaynar çağında – 40 yaşına belə yetməmiş neçə xəstəliklə üz-üzə gəldin, nə qədər sınağa, nə qədər ağrıya tab gətirməli oldun. İllər uzunu səni bədbinlikdən, ümidsizlikdən qorudum. Ev-eşik qayğılarından, min cür sıxıntıdan uzaq saxladım. Əcələ gücüm yetmədi, ölümdən qoruya bilmədim səni. Gücüm də, dözümüm də sənինlə bitdi, Hüseyn!

Bizim məhəbbətimiz əlli ilin sınağından keçib. Şahidimiz bu illər ərzində mənə yazdığın yüzlərlə şeirdir. Hər gün səndən yadigar qalan dəftərləri vərəqləyir, dönə-dönə oxuyur, kövrək, səmimi, qaynar duyğuların işığına bələnir, acılı-şirinli xatirə dolu bu dünyadan qopmaq, ayrılmaq istəmirəm. Sənsiz olmamaq üçün, sənsiz qalmamaq üçün…

Yadındamı universitetdə oxuduğumuz, şeir dərnəyinə getdiyimiz xoşbəxt, qayğısız illər. Bir gün rəy demək

üçün məndən şeir dəftərimi istədin. Geri qaytaranda mənə yazdığın ilk şeiri oxudum.

Gəl and içək bir müqəddəs ilqara,
Nur çiləsin bu peymana gözlərin.
Doğru sözün bəndəsiyəm əzəldən,
Çəksin məni imtahana gözlərin.

Ömür boyu həsrətinlə yanaram,
Bir quş olub yollarına qonaram.
Sən olmasan bu dünyanı danaram,
Əvəz olar bir cahana gözlərin.

«Gözlərin» adlı bu şeir mənim ürəyimin qapısını döyən bir elçiyə döndü. Tələbə dəftərlərim mühazirələrdən çox sənin yazdığın şeirlərlə doldu. Öz ürək həmdəmini doğulub boya-başa çatdığın, bulağından şairlik vergisi içdiyin doğma yurd-yuvana, candan əziz bildiyin dağlara çağırdın.

Qonaq gedək mən gəldiyim o dağa,
Qurban olum, sənin kimi qonağa.
Qovma məni gözlərindən uzağa,
Yaxşı günüm, xoş məkanım tapılmaz.

Yaxşı günlərimizi, sevgi və səadət dolu günlərimizi ailə xoşbəxtliyində, isti yuvamızda tapdıq.

Boran oldu, qar oldu,
Axırı bahar oldu.
Laçınlı Kürdoğluya
Qubalı qız yar oldu.

Üç övlad sahibi olduq, bir-birindən şirin beş nəvənin boyunu sevib əzizlədik. Sənin şeirlərin toy-büsatlı günlərimizin yaraşığı, dərdli günlərimizin məlhəmi oldu.

Sənin kövrək, həssas qəlbindən süzülən hər sözü başım üstündə yanan bir çırağa bənzədirdim.

Bu rəngsiz, boyasız, bakir camalın –
Qocalmaz ilhamım, səadətimdir.
Başına dolanar tərlan xəyalım,
Sənin ziynətin də məhəbbətimdir.

İsti yuvamızın keşiyində dur,
Sən həsəd aparma dövlətə-vara.
Gözəllik də budur, həyat da budur,
Gözəlim, aldanma parıltılara.

Sevgi və halallıq üzərində qurulan ocağımızda xoş-bəxtlərin xoşbəxti, varlıların varlısıydıq. Dünyanın hansı ziynəti, hansı daş-qaşı sənin sözünü əvəz edə bilərdi? Ad günlərimizdə sənin şeirindən yaxşı bir hədiyyəni xəyala belə gətirməzdik. Uşaqlar dil açanda, yeriyəndə sənin sözlərin də qol-qanad açıb pərvazlanardı.

Ağzı bircə dişli, yarımca yaşlı,
Dodağı gülüşlü oynağan balam.
Kirpikləri yaşlı, qalınca qaşlı,
Acanda savaşlı, ağlağan balam.

Bu, Süsənə yazdığın şeirdəndir.

Büdrəmək, yıxılmaq qorxutmur səni,
Bilirsən yüyürüb qaldıracağam.
Hələ ki, qoruyur taleyim məni,
Ərsəyə çatınca sənə dayağam.

Bu, İlhama yazdığın şeirdəndir.

Doğdu fevral günəşi bahar günəşi kimi,
Dünyaya süd içirtdi analar döşü kimi.
Üfüqlərin gülüşü körpə gülüşü kimi!

Səadət mizrabıyla qəlbimi dindir bu gün.
Bir oğlum da doğuldu,
Nə yaxşı gündür bu gün!

Bu da sonbeşiyimiz Nasirə yazdığın şeirdəndir.

Sənin qədər ailəcanlı, uşaqlarını sevib-əzizləyən ata tək-tək olar. Ailənlə öyünərdin, sevinərdin, qürurlanardın. Mən xəstə yatdığım günlərdə yazdığın şeir yadındamı?

Atma gəldiyin yolun torpağından öpəni,
Öz könül dünyasına qəm toxumu səpəni.
Dolmuş səma gözlərin xəyalımın vətəni,
Yollarını bağlama, xəyal vətənə gəlsin,
Xumar gözlüm, ağlama, azarın mənə gəlsin.

Sənin bir ailə başçısı, ömür-gün yoldaşı kimi qayğını, diqqətini, fədakarlığını sözlə ifadə etməkdə acizəm. Uşaqlardan hansı xəstələnsə bəlkə də həkimlərin dava-dərmanından çox sənin sözlərinin sehrindən, şəfqətindən sağalardı.

Anan əli qoynunda hey ağlayır, kiriyir,
Gözlərinin sevinci dərd içində əriyir.
Qəlbimin qəm yurdunu duman, çiskin bürüyür,
Yumulmuş kirpiyinlə bağrımı iki bölmə,
Ölmə, Süsənim, ölmə!

Hər bir kitabın çıxanda birinci nüsxəni şeirlə avtoqraf yazıb mənə bağışlardın. «Səhər nəğmələri» adlı ilk kitabına belə bir avtoqraf yazmışdın:

Ey könül bağında ilkin çiçəyim,
Soldura bilərmi boran-qar səni?
Verdim sevgilimə yadigar səni,
Onundur ilhamım, eşqim, ürəyim.

Qoynunda saxlayar nazlı yar səni,
Verdim sevgilimə yadigar səni.

Başqa bir kitabını isə belə bir avtoqrafla hədiyyə etmişdin:

Göy olsan günəşimsən, torpaq olsan baharım,
Özüm torpaq olunca dönməz eşqim, ilqarım.
Mənim nazlı Fəridəm, mənim şeir sərrafım,
Sənsən, balalarımdır, bir də sözümdür varım.
Qoy gün doğsun üstünə, sənindir bu xəzinə,
Susamış maralımsan, gəl bu çeşmə gözünə.

Nəvələrinə yüzlərlə şeirlər yazmısan. Şaiqlə Aytən şeirlərini əzbər söyləyəndə uçmağa qanadın olmurdu. Məktəbdə yeni bir mövzu keçəndə, bayram günləri olanda nəvələrin səndən yeni şeirlər istəyərdi. Onların sifarişindən fərəhlənərdin, heç zaman «yoruldum, usandım» deməzdin. Nəvələrin o şeirləri yenə deyirlər, Hüseyn. Eşidirsənmi, sevinirsənmi?! Onların səni axtaran nisgilli gözlərini görürsənmi?

Çıxar sinif qabağına, şeirimi söylər Aytənim,
Dərsindən «beş» alıb gələr, məni şad eylər Aytənim.
Bu qədər ki, çox istəyir başı qarlı babasını,
O bir gün daşa dönəndə bilmirəm neylər Aytənim?!

Mənə ünvanlanan hər şeirində bir xatirəmiz, sözə dönüb qalan bir anımız yaşayır. Onların hamısı mənə əzizdir. «Səninkiyəm» şeirinin isə ürəyimdə öz yeri var. Sən o şeiri yazanda hər sözün, hər misranın sənsiz günlərimin ağısına, harayına dönəcəyini nə biləydim. Deyilənin, yazılanın beləcə başa gəldiyini, beləcə yaşandığını nə biləydim.

Səninkiyəm, soyuq məzar torpağı
Mənim şair gözlərimə dolunca.

Öz sözümdən ağı deyib özümə,
Yana-yana saçlarını yolunca.

Baxtım kəsib sən olmusan əzəlim,
Ah çəkirsən töküldükcə xəzəlim.
Gözəlimsən, gözəlimsən, gözəlim!
Səninkiyəm qara yerin olunca.

Nazlı pərim, sən ha çəkdin nazımı,
Bir ayə tək qorudun hər sözümü.
Səninkiyəm, dərdli könül sazımı
Qoca fələk alıb daşa çalınca.

Səndən uzaq vallah əhli qürbətəm,
Bir şəkiləm, cansızca bir surətəm.
Sanıram ki, min il sənə həsrətəm,
Gözlərindən bir gün ayrı qalınca.

Bəhər götür, ömür barlı bağ ikən,
Söz yanında hələ üzüm ağ ikən.
Kürdoğlunun qədrini bil sağ ikən,
Gecə-gündüz çox ağlarsan dalınca.

Son illər çox fikirli, qəmgin dolanırdın. Xəstə canından da, səni doğma Laçına həsrət qoyan amansız dövrandan da gileyli idin. Beş il əvvəl çəkdirdiyin bir şəkli mənə bağışlarkən arxasına belə şeir yazmışdın:

Qocaldım, gözəlim, qocaldım yaman,
Get-gedə soyuyur ürəyimdə qan.
Gözlərin qurbanı yazıq canımı,
Səndən də, məndən də alacaq zaman.

«Ölümdən, məzardan az yaz. Axı bizim əhdimiz var. İlk nəvəmizin – Daşqınımızın toyunda qoşa süzməliyik» – deyirdim. Məni kövrələn görüb dəftəri gizləyər, toxtaqlıq verərdin. Bu şeiri də məni ovundurmaq üçün yazmışdın.

Kövrəlirik, ağlayırıq,
Dolanırsan başıma sən.
Hər qətrədə bir can olsa,
Verərdin göz yaşıma sən.

Ağır illər axıtmısan,
Qəlbimi çox ovutmusan.
Var ol, nələr oxutmusan,
Qəmli könül quşuma sən.

Gecə-gündüz yana-yana,
Göz yaşın döndümü qana?!
Yalvarıban yaradana,
Yaş caladın yaşıma sən.

Bu həzin, kövrək duyğular məni o qədər təsirləndirdi ki, sənin qarşında cürət edib şeir adına bu sözləri yazdım.

Baharımsan, yayımsan,
Ulduzumsan, ayımsan.
Şirin tanrı payımsan,
Odur ki, səhər-axşam,
Yalvarıb yaradana,
Dolanıram başına.

Evimizə dayaqsan,
Eşqimizə çıraqsan.
Məhəbbət keşiyində
Həmişə üzüağsan.
Odur ki, səhər-axşam,
Yalvarıb yaradana,
Dolanıram başına.

İşıqlı sabahımsan,
Ümidim, pənahımsan.
Mənim qibləgahımsan,
Odur ki, səhər-axşam,

Yalvarıb yaradana,
Dolanıram başına.

Ayrılığın belə tez gələcəyini duymuşdun deyəmi qələmi əlindən bir an belə yerə qoymaq istəmirdin? Can ağrısından macal tapan kimi diz üstə olsa da yazdıqca yazırdın. Mənə oxumağa qıymadığın o şeirləri indi dərdimlə birgə oxuyuram, Hüseyn. Ayrılığın, sənsizliyin şeirlərini…

Yadıma saldıqca son ayrılığı,
Sızlayır, göynəyir bağrımın başı.
Sənінəm göylərdə günəş sönüncə,
Qocalıb, ovulub quma dönüncə.
Sənsiz ağlayacaq məzarım daşı.

Qırx beş il əvvəl Astaradan – hərbi düşərgədən mənə yazdığın ilk məktub yadındamı, Hüseyn? Bir tutya kimi əzizləyib saxladığım o məktubu bu günlərdə yenidən oxudum. Sənin ilk məktubunu son məktubun kimi oxudum, Hüseyn. O məktubda yazırsan: «… Səni tez-tez yuxularda görürəm. Bəzən gülürsən, bəzən ağlayırsan, küsürsən, doluxursan. Dünən gecə səni ayaqyalın bir halda uca bir qayanın döşü ilə çıxan halda gördüm. Dalınca yüyürürdüm, sənə çata bilmirdim. Məndən qabaq qayanın başına çıxıb özünü tulladın, fəqət yerə düşmədin, buludlardan iki əl uzanıb səni göydə saxladı. Yerdən qollarımı açıb buludların içərisindəki o qüdrətli əllərə yalvardım, ancaq səni mənim ağuşuma qaytarmadı, çığırmaq istədim, yuxudan ayıldım. Hər axşam buludlara baxıram, sənin qəmli baxışlarını ulduzların içində axtarıram. Sən göydən, mələklərin məskənindən baxıb məni Xəzərin qumlu sahillərində görürsənmi?» Sən gördüyün bu yuxu qırx beş il sonra mənim görəcəyim yuxuymuş, Hüseyn. Yuxu kimi keçən ömrümüzün əvvəldə yazılan sonuymuş…

Yalnız bir təsəllim, bir ümidim var. Hər bir ömrün sonu olsa da böyük sevginin və bu sevgidən, bu işıqdan yaranan poeziyanın sonu olmur. Sən şeirə bir allah qədər tapınırdın, ilahidən verilən bu payın möcüzəsinə və qüdrətinə inanırdın. «Mən ölsəm də, sözüm diri qalacaq» – deyirdin.

Sən hər zaman yaşayacaqsan, Hüseyn! Səni oxuyanların, duyanların, sevənlərin qəlbində, ömrümüzün-günümüzün şeirə dönən hər ayında, hər günündə, hər anında.

Bu ağrılı-acılı günlərimdə dayağım və sirdaşım sənin həzin, kövrək nəğmələrin, bir də xoşbəxt günlərin yadigarı olan şəkildən üzümə təbəssümlə baxan gözlərindir, Hüseyn!

Yazılmamış varağam,
Quruca bir budağam.
Evimizdə qonağam
Sənsiz olanda,
Sənsiz olanda…

30.X.2003

SƏNSİZ OLANDA

Gülsüz-çiçəksiz yazam,
Qəribsəmiş avazam,
Sinəsiz qalmış sazam
Sənsiz olanda…

Bülbül gülşənsiz ötməz.
Kolsuz bənövşə bitməz.
Gözümü əcəl örtməz,
Sənsiz olanda…

Ağacsız olarmı bar,
Pərvanə şamda yanar,
Gözlərim səni arar,
Sənsiz olanda…

Üzüksüz qaş kimiyəm,
Bir qara daş kimiyəm,
Qanadsız quş kimiyəm
Sənsiz olanda…

Yazılmamış varağam,
Quruca bir budağam,
Evimizdə qonağam
Sənsiz olanda…
Sənsiz olanda…

1994

LAYLAY, HÜSEYNİM LAYLAY

Şəklini qucaqlaram,
Səni belə ağlaram.
Laylay, Hüseynim laylay,
Məndən küsənim, laylay.

Nədən vəfasız oldun,
Açmamış gültək soldun.
Məni yaman tək qoydun,
Laylay, Hüseynim laylay,
Məndən küsənim laylay.

Mehriban yoldaşımdın,
Atam, həm qardaşımdın.
Mən üzük, sən qaşıydın,
Laylay, Hüseynim laylay,
Məndən küsənim laylay.

Süsənin gözü yaşdı,
İlhamın yazı qışdı,
Nasirim yaman çaşdı,
Laylay, Hüseynim laylay,
Məndən küsənim laylay.

Bacın yaman ağlayır,
Qəlbimizi dağlayır,
Hey səni soraqlayır,
Laylay, Hüseynim laylay...
Məndən küsənim laylay...
Bizdən küsənim laylay...

13/VII/2003

HARDASAN?

Məhəbbətdən hörülən xanimanım yıxıldı,
Səadətim, sədaqətim yox oldu.
Saf eşqimiz xain gözə ox oldu,
Yox insafın, mərhəmətin, hardasan?
Qırx beş illik məhəbbətim, hardasan?

Sən yoxsansa, harayıma gələn yox,
Gözlərimdən qanlı yaşı silən yox.
Ürəyimdən keçənləri bilən yox,
Yox insafın, mərhəmətin, hardasan?
Qırx beş illik məhəbbətim, hardasan?

Qəmlə savaşdayam, gülə bilmirəm,
Dərdim dağdan ağır bölə bilmirəm.
Sənsiz necə ölüm, ölə bilmirəm,
Yox insafın, mərhəmətin, hardasan?
Qırx beş illik məhəbbətim, hardasan?

20/VII/2003

NƏ DEYİM?

Qohum-qonşu səni məndən soruşur,
Evə gələn qonağına nə deyim?
İlham pərin yetim qalıb ağlayır,
Bəyaz qalan varağına nə deyim?

Yolunu gözləyən çəmənlər, düzlər,
Sözündən doymayan gəlinlər, qızlar,
Səmada günəş, ay, bir də ulduzlar
Düşüb sənin sorağına, nə deyim?

Səni şair yaratmışdı Yaradan,
Məsum gözlüm, nə tez doydun dünyadan?
Hardan gəldi bu bəd ölüm, haradan,
Vaxtsız sönən çırağına nə deyim?

Sənsiz yaman saralıram, soluram,
Leysan tökən bulud kimi doluram.
Tək olanda Allahımla qalıram,
Düşüb Tanrı ayağına nə deyim?
Düşüb Tanrı ayağına nə deyim?

20/IV/2004

SÖZSÜZ QALMIŞAM

Başımın tacıydın,
Gözümün nuru,
Gözümdə nur da yox,
Gözsüz qalmışam.
Naznazı gözəlim
Deyərdin mənə,
Nazım da qurtarıb
Nazsız qalmışam.
Yazım da sən idin,
Baharım da sən,
Çəmənsiz, çiçəksiz,
Yazsız qalmışam.
Sazımızı daşa
Çırpdı bu fələk,
Şeirsiz qalmışam,
Sazsız qalmışam.
Sənə söyləməyə
Sözüm qurtarıb,
Söhbətsiz qalmışam,
Sözsüz qalmışam.

25/XII/2005

MÜNDƏRİCAT

Sevgi dastanı 3

Hüseyn Kürdoğlu. Sənin kiyəm mən

Gözlərin 9
Tapılmaz 9
Qoşma 10
Təcnis 11
Könlüm 11
Qoşma 12
Qoşma 12
Qəlbimi sındırıb 13
Azarın mənə gəlsin 13
Qoşma 14
Qoşma 15
Baxmaz 15
Qara gözlər 16
Qoşa ucalaq 16
Niyə məndən qaçırsan? 17
Hanı məktubun? 17
Tez qayıt 18
Gözlədim, gözlədim, gözüm saraldı 19
Səni 19
Vəfalıyam mən 20
Ömrümüz puç olur qəflət içində 21
Qonaq gələcək 21
Qoşma 22
Qubada 22
Qoy dolanım bu dağların başına 23
Bəyənmir məni 24
Könül bağladım 25
Nə doluxmusan? 26
Neçin ağlayırsan? 26
Fəriş 27
Çiçək vaxtı 28
Sənsiz 29
Könlüm 29
Fəridəmə yadigar 30
Həyat yoldaşıma 30
Sən könlümün otağına çıraqsan 31

Hər axşam ... 32
Xalların qara küncüt ... 32
«Qaya çiçəkləri» kitabına yazılan avtoqraf ... 33
Yar bənövşəsi ... 33
Ay Fəriş ... 34
Mübarəkdir bayramın ... 34
Ay qara qız ... 35
Fərişin ad gününə ... 36
Fəridəyə ... 36
Fəridənin 8 mart bayramına ... 36
Həsəd aparma ... 36
Xətrimə dəymə ... 37
«Dörd telli durnam» (avtoqraf) ... 38
Mən uca bir dağam, sənsə günəşim ... 39
«Toy karvanı» (avtoqraf) ... 40
Eşqimiz ... 40
Mənim nazlı Fərişim halal evin qızıdır ... 41
Baxma dən düşən saçıma ... 41
Mənəm ... 42
Əllini gizlədək xatirələrdə ... 42
Fərişə 8 mart təbriki ... 43
Otuz ildir gözlərini gördüyüm ... 43
«Quzular dağa çıxdı» (avtoqraf) ... 44
Yarımışıq biz ... 45
Sən Allah qoy şeir yazım ... 46
Ömrüm-günüm, ağlama ... 47
Məgər qıyardımmı ... 48
«Min bir bayatı» kitabına (avtoqraf) ... 48
Fəridənin leylafəri ... 49
Fəridəmə ... 50
Fəridənin ad gününə ... 50
Ay mənim qarabuğdayım ... 51
Fəridəyə ... 52
Sağ ol, Fəriş, mən getdim ... 52
Fərişimə ... 53
Heyranam Qubada «alma qəndil»ə ... 53
Kürdoğlunun canı yar ... 54
Səninkiyəm mən ... 54
Sizə qurban olum mən ... 54
Fərişimə 8 mart təbriki ... 56
Fəridənin ad gününə ... 56
Qara tel ... 57
Çox zaman sözümə acılar qatdım ... 57
«Yaralı torpağım, yaralı sevgim» (avtoqraf) ... 58

Bu əziz günlərdə incimə məndən 58
Sənինkiyəm 59
Qışı da xoşdur Qubanın 60
Fərişimə 8 mart təbriki 61
Şam işığında 61
60 ilə çatan yar 62
Mən ki, öz ürəyimdə tək səni yaşatmışam 70
Sinəmdə ürəksən mənim 70
Qocaldım, gözəlim, qocaldım yaman 71
«Tovuzum mənim – oğuzum mənim»
(avtoqraf) 71
Laçın bənövşəsi yadıma düşdü 71
«Ziyalımız – ziyamız» (avtoqraf) 72
Gözəlim Fəridə, eşqinlə yandım 73
Fərişimə 73
«Hər şəhid bir nəğmədir» (avtoqraf) 74
«İmana-dinə gəldim» (avtoqraf) 74
Sənin şairinəm 74
Dolanırsan başıma sən 75
Ad günün mübarək 76
Biz ki ayrılmazıq 76
Altmış dörd yaşın 77
Eşqimin bir dənəsi 77
Ağlaşaq 78
Fərişin altmış beş yaşı 80

Fəridə Alışanlı. Sənsiz olanda

Keçən günlərimi qaytaraydılar… 83

Sənsiz olanda 92
Laylay, Hüseynim laylay 92
Hardasan? 93
Nə deyim? 94
Sözsüz qalmışam 95

HÜSEYN KÜRDOĞLU
FƏRİDƏ ALIŞANLI

SƏNƏ KÖNÜL BAĞLADIM

Bakı – «Sabah» – 2009

Nəşriyyatın direktoru: ***Şirindil Alışanlı***

Kompüter tərtibçisi: ***Nasir Alışanlı***

Formatı: 84x108 1/32. Tirajı 100.
Həcmi: 6,75 ç.v. Sifariş № 93
Qiyməti müqavilə ilə.

"Elm" RNPM-in mətbəəsində çap olunmuşdur
(İstiqlaliyyət, 8)